AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpnews.az
www.olimpiyadunyasi.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 41 (1386), 2 - 8 oktyabr 2018-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*

## Komandalarımızın Batumidəki uğurlu çıxışı davam edir




Gürcüstanın Batumi şəhərində keçirilən 43-cü Ümumdünya Şahmat Olimpiadası davam edir. Dünyanın ən güclü zəka sahiblərinin mübarizə apardığı olimpiadada növbəti turun oyunları keçirilib. VII turda kişilərdən ibarət Azərbaycan millisi Polşa yığması ilə heç-heçə edib - 2:2. Qarşılaşmada Şəhriyar Məmmədyarov Duda Yan-Kşiştofla, Teymur Rəcəbov Rodoslav Voytaşeklə, Arkadi Naydiç Tomçak Yaçeklə, Eltac Səfərli isə Kamil Draqunla xalları yarı bölüb. Bu nəticə ilə komandamız aktivindəki xalların sayını 13-ə çatdırıb. Qadınlardan ibarət komandamız isə bu tur İtaliya millisi ilə heç-heçə edib. Şahmatçılarımızın aktivində hazırda 11 xal var.

## Qitə çempionatının növbəti təsnifat mərhələsi Bakıda

Avropa Stolüstü Tennis Birliyinin təqvim planına müvafiq olaraq, 2019-cu il Avropa komanda çempionatının növbəti təsnifat mərhələsi Bakıda keçiriləcək.

Azərbaycan Stolüstü Tennis Federasiyasından "Olimpiya dünyası" qəzetinə bildiriblər ki, bu gün saat 15:00-da qadınlardan ibarət millimiz Almaniya yığması ilə qarşılaşacaq. Saat 18:00-da isə kişilərdən ibarət komandamız Litva millisi ilə görüşəcək.

Avropa Stolüstü Tennis Birliyinin yeni qaydalarına əsasən, komanda və şəxsi çempionatları bir il şəxsi, növbəti ildə isə komanda üzrə keçiriləcək. 2019-cu ildə keçiriləcək Avropa komanda çempionatında 24 qadın və 24 kişi komandası iştirak hüququna malikdir. Bu 24 millinin arasında yer almaq üçün Avropa komandaları ev sahibi və səfərdə olmaqla təsnifat oyunlarında iştirak edirlər.

Təsnifat oyunu "Şüa" idman sağlamlıq kompleksində keçiriləcək.

EUROPEAN TABLE TENNIS UNION
ettu.org
2018 Stage 1
ITTF European Team Championships

## Paralimpiyaçımız Almaniyada 4 qızıl medal qazanıb

Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin (ARMPK) üzgüçülük üzrə milli komandasının idmançısı Roman Saley beynəlxalq turnirdə 4 medal qazanıb. Təmsilçimiz Almaniyada keçirilən beynəlxalq yarışda uğurla çıxış edib. Belə ki, Roman Saley 50 və 100 metr məsafəyə sərbəst üsulla üzgüçülük yarışlarında fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. İdmançımız, həmçinin arxasıüstə krol və batterflyay üsulla 100 metr məsafəyə yarışlarda da birinci yeri tutub.

## Güləş yığmamız dünya çempionatına hazırlaşır

Güləş üzrə yığmamız oktyabrın 20-dən 28-dək Macarıstanın paytaxtı Budapeştdə keçiriləcək dünya çempionatına ciddi hazırlaşır. Hazırlıq prosesinə əvvəlcə sərbəst güləş üzrə millimiz start verib. Oktyabrın 1-dən Olimpiya Güləş Mərkəzində başlayan məşqlər oktyabrın 18-dək davam edəcək.

Yunan-Roma güləşçilərimiz isə bu gündən məşqlərə başlayacaqlar. Klassiklərin təlim-məşq toplanışı oktyabrın 23-də yekunlaşacaq.

Qadınlardan ibarət yığmamız isə dünya çempionatına Türkiyədə hazırlaşacaq. Oktyabrın 5-dən 20-dək İstanbulda toplanış keçəcək millimiz Macarıstana da Türkiyədən yola düşəcək.

## Polo üzrə Azərbaycan millisi Avropa çempionatının gümüş medalına layiq görülüb

İtaliyanın Siena şəhərində keçirilən polo üzrə Avropa çempionatına yekun vurulub. Beynəlxalq Polo Federasiyasının və İtaliyanın Atçılıq İdmanı Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən yarışda Avstriya, Almaniya, Fransa, Hollandiya, Slovakiya, İspaniya, İsveçrə, İrlandiya, İtaliya və Azərbaycan yığma komandaları iştirak edib. Avropa çempionatının son və həlledici oyunu gərgin və dramatik anlarla yadda qalıb. Milli komandamız gözəl oyun nümayiş etdirsə də, 8:4 hesabı ilə İtaliya seçməsinə məğlub olaraq gümüş medal qazanıb. Qitə çempionatının debütantı olaraq böyük müvəffəqiyyətə imza atmış Azərbaycan komandasının turnirdə nümayiş etdirdiyi qələbə əzmi və döyüş ruhu yarışın ən böyük sürprizi olub. Atçılıq idmanı tariximizə yeni səhifə yazan millimiz Avropa çempionatının əvvəlki turlarında Hollandiya komandasını 7:3, Fransa millisini 8:4, Slovakiya yığmasını isə 11:7 hesabı ilə məğlub edib.



## Olimpizm

### Yaponiya yay vaxtına keçməkdən imtina etdi

Texniki çətinliklər səbəbindən Yaponiya hökuməti 2020-ci ildə Tokioda keçiriləcək Olimpiada ərəfəsində yay vaxtına keçməkdən imtina edib. Təşkilat Komitəsi bildirib ki, Olimpiada ərəfəsində saatların əqrəbini bir-iki saat əvvələ çəkmək idmançıları və tamaşaçıları gündüzün istisindən qorumaq baxımından yaxşı olardı. Lakin bu planın təfsilatı ilə araşdırılması göstərib ki, 2020-ci ildə Yaponiyada bütün sistemləri səmərəli şəkildə yeni vaxta keçirmək texniki cəhətdən çətindir. İctimaiyyətin bir hissəsi də bu addımın əhalinin sağlamlığı üçün arzuolunmaz nəticələr doğuracağı qənaətindədir.

TOKYO 2020

Bununla yanaşı, ölkənin hakim Liberal-Demokrat Partiyasının nəzdində yaradılmış xüsusi komitə yay vaxtının tətbiq edilməsi məsələsini araşdırmaqda israrlıdır. Xüsusən, cari maliyyə ilində komitə bu məsələyə dair aralıq hesabatı hazırlamaq niyyətindədir.

Yaponiyada ötən əsrdə də yay vaxtına keçməklə bağlı məsələ müzakirəyə çıxarılıb, lakin iqtisadiyyatda və əhalinin sosial həyatında qarışıqlıq yaranacağı ehtimalı nəzərə alınaraq, bu islahatdan imtina edilib.

Digər tərəfdən, bu yay ölkənin bütün ərazisində, o cümlədən paytaxt Tokioda anomal istilər qeydə alınıb - havanın temperaturu 41 dərəcəyədək artıb. May ayından bəri bütün Yaponiya üzrə istilərin təsirindən 70 min nəfər xəstəxanaya çatdırılıb, onlarla insan vəfat edib.

### WADA yeni siyahını açıqladı

Beynəlxalq Antidopinq Agentliyinin (WADA) İcraiyyə Komitəsi 2019-cu il üçün qadağan olunmuş dərman preparatlarının siyahısını açıqlayıb. Bu barədə beynəlxalq qurumun mətbuat xidməti məlumat yayıb.

Sənəd WADA İcraiyyə Komitəsinin Seyşel adalarında keçirilən iclasında təsdiq olunub. İclasda, həm də 2019-cu il yanvarın 1-dən qüvvəyə minəcək beynəlxalq standartlar çərçivəsində terapevtik istisnalar da qəbul edilib.

WORLD ANTI-DOPING AGENCY

"İndiki siyahı ilə müqayisədə elə bir ciddi dəyişikliklər olmasa da, çalışacağıq ki, mövcud dəyişikliklər barədə ictimaiyyəti məlumatlandıraq", - deyə mətbuat xidmətinin məlumatında bildirilir.

Qadağan olunmuş dərman preparatlarının siyahısı gələn ilin yanvar ayından tətbiq olunacaq.

### Qızıl medal sahibini tapdı

Rusiyalı güləşçi Bəxtiyar Əhmədov Beynəlxalq Olimpiya Komitəsinə (BOK) müraciət edib. Müraciətdə xahiş olunur ki, dopinqə görə Artur Taymazovdan geri alınan qızıl medal ona oktyabr ayında keçiriləcək dünya çempionatında təqdim olunsun.

Məlumat üçün bildirək ki, Artur Taymazov Afina-2004 və London-2012 Olimpiadasının çempionu, Sidney-2000 Olimpiadasının gümüş mükafatçısıdır. O, Pekin-2008-də də bütün rəqiblərini üstələyərək qızıl medal alıb. Lakin 2017-ci ildə BOK dopinqə görə onu qızıl medaldan məhrum edib.

Bəxtiyar Əhmədov Pekin-2008 Olimpiadasının qızıl medalının ona bu ilin oktyabr ayında Budapeştdə təşkil ediləcək güləş üzrə dünya çempionatında təqdim olunmasını istəyir.

**UEFA Avropa Liqası qrup mərhələsi — E qrupu**

## "Qarabağ" - "Arsenal"

(Azərbaycan) (İngiltərə)

*4 oktyabr. Bakı. Olimpiya Stadionu. Saat 20:55.*



## Yeniyetmələrin III Yay Olimpiya Oyunlarına 4 gün qalır

### Xəzər İsayev:

*"Əldə olunan uğurlar Azərbaycanın ədalət prinsiplərinə sadiqliyinin nümunəsidir"*

Səh. 3

### Oleq Krapivinin şərəfinə sərbəst güləş üzrə turnir keçirilib

Səh. 2

### *"Gündoğar ölkə"də dünya çempionatı həyəcanı başladı*

Səh. 3

**olimpnews.az - sizin saytınız**




AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

## Sağlam düşüncəyə malik gənc nəsil yetişir

Səh. 6

# Oleq Krapivinin şərəfinə sərbəst güləş üzrə turnir keçirilib

Sentyabrın 29-30-da Şamaxı Olimpiya İdman Kompleksində Əməkdar bədən tərbiyəsi və idman xadimi Oleq Krapivinin şərəfinə keçirilən sərbəst güləş üzrə VI açıq respublika turnirinə start verilib. 2004-2005-ci illər təvəllüdlü yeniyetmələrin qüvvəsini sınadığı turnirdə Azərbaycan, Rusiya, Ukrayna, Gürcüstan, İran, Qazaxıstan və Qırğızıstandan ümumilikdə, 300-ə yaxın güləşçi mübarizə aparıb. Ümummilli lider Heydər Əliyevin abidəsi ziyarət olunduqdan sonra Şamaxı Olimpiya İdman Kompleksində turnirin açılış mərasimi keçirilib. Tədbirdə veteran güləşçi Oleq Krapivin, Gənclər və İdman Nazirliyinin nümayəndəsi Tofiq Eyvazov, Azərbaycan Güləş Federasiyasının vitse-prezidenti Namiq Abdullayev, ukraynalı Olimpiya çempionu Elbrus Tedeyev, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov, Diasporla İş üzrə Dövlət Komitəsinin departament rəhbəri Ruslan Quliyev iştirak ediblər. Açılış mərasimində çıxış edənlər Azərbaycanda idmana, Olimpiya Hərəkatına diqqət və qayğısından danışıblar.



Tədbirdə Azərbaycanda güləşin inkişafında Oleq Krapivinin mühüm xidmətləri diqqətə çatdırılıb, onun şərəfinə keçirilən turnirin artıq ənənəyə çevrildiyi vurğulanıb. Qeyd edilib ki, belə yarışlar istedadlı yeniyetmə güləşçilərin üzə çıxarılması baxımından mühüm əhəmiyyət daşıyır. Sonda Oleq Krapivin Gənclər və İdman Nazirliyinin fəxri fərmanı ilə təltif olunub. Açılış mərasiminin rəsmi hissəsi Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə başa çatıb.

Güləşçilərimiz yarışları 3 qızıl, 9 gümüş və 16 bürünc medalla başa vurublar.

# Orta məktəb müəllimi “Veloməktəbli” layihəsinin qalibidir

Azərbaycan Respublikasının Təhsil Nazirliyi ümumi təhsil müəssisələrində çalışan pedaqoji işçilər üçün təhsildə inkişaf və innovasiyalar üzrə 2-ci qrant müsabiqəsinə yekun vurub. Müsabiqənin qaliblərindən biri də Səbail rayon 189-190 nömrəli tam orta məktəbin fiziki tərbiyə müəllimi Namiq Cəfərovdur (red.-qəzetimizdə Namiq Cəfərovun işlədiyi orta məktəb haqqında yazı gedib).



“Veloməktəbli” layihəsində qalib olan Namiq Cəfərovun dediklərinə görə, bu lahiyənin məqsədi şagirdlərdə oturaq həyat tərzinin qarşısının alınması və onların əmək fəaliyyətinə cəlb olunmasıdır. Əmək fəaliyyəti dedikdə, şagirdlərin müstəqil şəkildə öz velosipedlərini təmir etməsi başa düşülür. Heç kimə sirr deyil ki, məktəbli şagirdlərin əksəriyyəti əmək fəaliyyəti və fəal həyat tərzindən uzaqdırlar. Onlar evdə və ictimaiyyət arasında vaxtlarının çoxunu sosial şəbəkələrdə və kompüter oyunları qarşısında keçirirlər. Bu lahiyənin reallaşması şagirdlərdə velosiped idmanına həvəsin yaradılması, onlarda sağlam və aktiv həyat tərzini inkişaf etdirəcəkdir. Lahiyə məktəbdə təhsil alan şagirdlər tərəfindən Azərbaycan Respublikası təhsil sahəsində yenilikdir. Bu yenilik məktəblilərin həm asudə vaxtlarını səmərəli keçirmələrinə, onların bir-biri ilə ünsiyyət və əməkdaşlıq yaratmalarına kömək edəcəkdir.

Lahiyəyə görə, orta məktəbdə velosiped klubunun yaradılması şagirdlərin komanda şəklində bir yerdə toplaşmasına imkan yaradır. Bu da şagirdlərin birgə fəaliyyətini təmin etməklə yanaşı, işlərin bir yerdən idarə olunmasını təmin edir. 15 bölmədən ibarət olan layihənin avqust ayında icrası nəzərdə tutulur.

“Veloməktəbli” layihəsinin qalibi olan Namiq Cəfərov 189-190 saylı tam orta məktəbin direktoru Ceyran Kuliyevaya və Respublika Olimpiya Velosiped Məktəbinin direktoru, Gənc Velosipedçilər İctimai Birliyinin təsisçisi Faiq Qurbanova ona göstərdikləri dəstəyə görə minnətdarlığını da bildirdi.

# Qış paralimpiya idman növlərinin yaradılması sahəsində görülmüş işlər müzakirə edilib

Oktyabrın 1-də Milli Paralimpiya Komitəsində qış paralimpiya idman növlərinin yaradılması sahəsində görülmüş işlər və qarşıda duran vəzifələr müzakirə edilib.

Müzakirələrdə komitənin birinci vitse-prezidenti Natiq Qasımov, baş katib Kamal Məmmədov, qurumun mütəxəssisləri, “Şahdağ”Turizm Mərkəzi QSC-nin sədr müavini Rövşən Cahangirov və digərləri iştirak ediblər.

Tədbirdə qış idman növlərinin və idmançıların seçilməsi, onların tibbi təsnifatdan keçirilməsi, baş məşqçinin və məşqçilərin təyin edilməsi, onlar üçün təlim-məşq yerlərinin müəyyən edilməsi, avadanlıq və digər məsələlər barədə məlumatlar dinlənilib, müvafiq təkliflər verilib.

Qeyd olunub ki, ilkin olaraq üç idman növü seçilib. Bu sahə üzrə artıq iki idmançı müəyyən edilib, bir atletin də seçilməsi prosesi gedir. Baş məşqçi və məşqçilərin “Şahdağ” Turizm Mərkəzinin təlimatçıları arasından seçilməsi qərara alınıb.

Bildirilib ki, Beynəlxalq Paralimpiya Komitəsinin qış idman növləri üzrə İdarə Heyətinin dəstəyi ilə məşqçilər üçün hazırlıq kurslarının və idmançıların tibbi təsnifatdan keçirilməsi, eyni zamanda, idmançıların ilk təlim-məşq toplanışı noyabrın 1-5-də Birləşmiş Ərəb Əmirliklərindəki “SKİ Dubai” kompleksində həyata keçiriləcək.

Qış paralimpiya idmanı Azərbaycan Paralimpiya hərəkatı tarixində ilk dəfə olaraq yaranır. Milli Paralimpiya Komitəsi ilə “Şahdağ”Turizm Mərkəzi QSC arasında qış paralimpiya idman növlərinin yaradılması sahəsində birgə fəaliyyət barədə razılıq cari ilin əvvəlində əldə olunub.

## Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi



# Kross qaçışı üzrə Bakı çempionatında qaliblər müəyyənləşib

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) tərəfindən Bakı Dövlət Cıdır Meydanında kross qaçışı üzrə Bakı çempionatı keçirilib.

Yarışda yeddi klubu təmsil edən idmançılar mübarizə aparıb.

Qadınlar arasında 1 kilometr məsafəyə qaçışda Günel Manafova, 2 kilometrə qaçışda Brilyant Bayramova, 4 kilometrə qaçışda Natavan Etibarova, 6 kilometrə qaçışda isə Anna Yusupova birinci olublar.

Kişilərin yarışında Süleyman Məmmədli 2, Nadir Əliyev 3, Nail Rzayev 6, Elman Abışov isə 10 kilometr məsafəyə qaçışda fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Qalib və mükafatçılara Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi tərəfindən müvafiq dərəcəli diplom və xatirə hədiyyələri təqdim olunub.

* * *

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) tərəfindən Bakı Atıcılıq Mərkəzində güllə atıcılığı üzrə Bakı kuboku yarışları keçirilib.

Yarışda 43 idmançı mübarizə aparıb.

Kişilər arasında PT-4 tipli tapançadan atəşaçmada Ruslan Qəhrəmanov, PTÇ-3 tipli tapança ilə yarışda Morteza Dana fərqlənərək qızıl medal qazanıblar. Qadınlar arasında PT-4 tipli tapançadan atəşaçmada Jalə Bayramova, PTÇ-3 tipli tapançadan atəşaçmada Nigar Nəsirova fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. N.Nəsirova daha iki kateqoriyada - PTÇ-mix (10 m) tipli tapançadan atəşaçmada və PTÇ-mix (20+20) tipli tapançadan atəşaçmada birinci yeri tutub.

Qalib və mükafatçılara Baş İdarə tərəfindən müvafiq dərəcəli diplom və xatirə hədiyyələri təqdim olunub.

## Yubiley

# Təcrübəli mütəxəssisin 60 yaşı tamam olur

Oktyabrın 6-da təcrübəli mütəxəssis, Əməkdar məşqçi və Respublika dərəcəli hakim Kərim Kərimlinin 60 yaşı tamam olur.



1977-ci ildə Bədən tərbiyəsi texnikumunu bitirən Kərim Kərimli, “Məhsul” cəmiyyətində ağırlıqqaldırma idman növü ilə məşğul olub. O, 1985-ci ildə SSRİ İdman Ustası adını qazanıb. Elə həmin il Moskva Vilayət Bədən Tərbiyəsi İnstutunu ağır atletika məşqçi-müəllim ixtisası üzrə bitirib. Müxtəlif ixtisaslar üzrə bir neçə təhsil alan və uzunmüddətli müəllimlik təcrübəsi olan mütəxəssisin tələbələri dəfələrlə yerli və beynəlxalq yarışlarda uğur qazanıb.

UGİM və “Zirvə İnternational Sport Clubs”ın məşqçisi olan Kərim Kərimlinin regionlarda ağırlıqqaldırmanın inkişafında müstəsna rolu, bu idman növünün kütləviləşməyi, populyarlığının artırılması istiqamətində əməyi olub. Bir müddət gənclərdən ibarət ağırlıqqaldırma üzrə Azərbaycan yığma komandasının baş məşqçisi vəzifəsində çalışıb. Həmin ərəfədə onun yetirmələri beynəlxalq yarışlarda uğurlu nəticələr qazanıblar.

Kərim Kərimlini yubiley münasibətilə təbrik edir, ona uzun ömür, cansağlığı, işlərində müvəffəqiyyətlər arzulayırıq!

***Azərbaycan Ağır Atletika Federasiyası***

# Kikboksçumuzun “Glory” seriyalı yarışda növbəti qələbəsi

Azərbaycanın və “Qəbələ” idman klubunun kikboksçusu Alim Nəbiyev növbəti qələbəsini qazanıb.

İdmançımız “Glory” seriyalı yarışda uğur əldə edib. O, Hollandiyanın paytaxtı Amsterdamda təşkil olunan “Glory59” döyüş gecəsindən qələbə ilə ayrılıb. A.Nəbiyev “Yohan Kroyff Arena”da hollandiyalı Eyevan Danenberqlə üz-üzə gəlib. “Glory” reytinqinin 2-cisi olan kikboksçumuz bu siyahıda 4-cü olan rəqibinin müqavimətini qıraraq, rinqi qalib kimi tərk edib.

Bu, Alimin nüfuzlu seriyada keçirdiyi 5-ci döyüşdə 4-cü qələbəsi olub. Ümumilikdə isə A.Nəbiyev 57-ci döyüşündə 50-ci dəfə qalib gəlib.

# Millimiz üç pillə geriləd

FIFA milli komandaların növbəti reytinq cədvəlini dərc edib. Azərbaycan komandası siyahıda 3 pillə geriləyərək 1202 xalla 108-ci olub.

Dünyanın 210 yığmasının yer aldığı siyahıda ilk 15 yerə aktivlərində 1729 xal olan Belçika və son dünya çempionu Fransa yığmaları başçılıq edirlər. Braziliya 1663 xalla ikinci, Xorvatiya millisi isə 1634 xalla dördüncü yerdədir. Reytinq cədvəlində digər pillələrdə müvafiq olaraq Uruqvay (1632), İngiltərə (1612), Portuqaliya (1606), İsveçrə (1598), İspaniya (1597), Danimarka (1581), Argentina (1575), Çili (1568), Almaniya (1568), Kolumbiya (1567) və İsveç (1550) komandaları qərarlaşıb.

# Bakıda beynəlxalq səviyyəli ekstremal idman yarışı təşkil olunub

Sentyabrın 29-da Bakıda Fövqəladə Hallar Nazirliyinin Təlim-Tədris Mərkəzində “Gilan Holding”in, FHN-in, Gənclər və İdman Nazirliyinin, Milli Olimpiya Komitəsinin təşkilati dəstəyi ilə beynəlxalq səviyyəli ekstremal idman turniri - “Mübarizlər” yarışı keçirilib.




Yarışın açılış mərasimində çıxış edən “Mübarizlər” layihəsinin rəhbəri Elvin İsmayılov turnir haqqında məlumat verib. Bildirilib ki, üçüncü dəfədir Azərbaycanda təşkil edilən beynəlxalq “Mübarizlər” yarışında 35 komanda, minə yaxın iştirakçı qeydiyyatdan keçib.

Azərbaycanda idmana göstərilən dövlət qayğısından danışan layihə rəhbəri deyib ki, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın idmana göstərdikləri yüksək diqqət və qayğının nəticəsidir ki, bu gün Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Hər il ölkəmizdə bir neçə beynəlxalq idman tədbiri keçirilir.

“Mübarizlər” beynəlxalq statusa malik bir layihədir. Bu layihənin adı Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun adı ilə bağlı olduğundan biz çox inanırıq ki, gənclərimizdə vətənpərvərliyə, onların milli ruhda tərbiyə olunmasına öz töhfəsini verəcək.

Sonra yarışa start verilib.

Qaydalara əsasən, iştirakçılar yarış ərzində 5 kilometr uzunluğunda trası qət ediblər. Daha sonra çempionat iştirakçıları uzunluğu 7 kilometr olan 42 maneədən ibarət məsafə üzrə qüvvələrini sınayıblar.

Kişilərin fərdi yarışında birinci yeri Ravil Xazıyev, ikinci yeri Aynur Ahmednəbiyev, üçüncü yeri isə Aleksandr Taqansev tutub.

Qadınların fərdi yarışında birinci yerdə Natalya Studinkina, ikinci və üçüncü yerlərdə müvafiq olaraq Anastasiya Mixina və Sima Səfərova qərarlaşıb.

Komanda hesabında Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin komandası birinci olub. “Bank of Baku”nun komandası ikinci, “Alten Group”un komandası üçüncü yerə çıxıb.

Bundan əlavə, güc strukturlarının komandaları arasındakı yarışda isə Fövqəladə Hallar Nazirliyinin komandası birinci olub.

Qaliblərə medal, kubok, diplom təqdim olunub.

Qeyd edək ki, böyük maraq doğuran “Mübarizlər” layihəsi ekstremal idman həvəskarlarına fəal istirahətin tamamilə yeni formatını - çətin keçilən ərazidə maneəli qaçışı təklif edir. Maneələr məxsusi olaraq elə hazırlanıb ki, trasın qət edilməsi zamanı iştirakçıların bütün əzələləri hərəkətdə olur.

Hazırda maneəli yarışlar bütün dünyada məşhurlaşan fəaliyyətlərdən biridir. Bu yarışlar artıq yeni idman növünə çevrilib.

Müsahibə

# Xəzər İsayev:

## *“Əldə olunan uğurlar Azərbaycanın ədalət prinsiplərinə sadiqliyinin nümunəsidir”*



***Sentyabrın 17-də Azərbaycan Milli Olimpiya Komitəsinin Ədalətli Oyunlar Komissiyasının (AzƏOK) 20 illik yubileyi ölkəmizdə təntənəli şəkildə qeyd olundu. 1998-ci ildə yaradılan AzƏOK ötən dövr ərzində uğurlu fəaliyyəti ilə yüksək nailiyyətlərə imza atıb. Bugünlərdə Milli Olimpiya Komitəsinin vitse-prezidenti, AzƏOK-un sədri Xəzər İsayevlə görüşərək qurumun fəaliyyəti barədə ətraflı məlumat aldıq.***

***- Xəzər müəllim, ilk növbədə, sizi AzƏOK-un 20 illik yubileyi münasibətilə təbrik edirik. İstərdik, sizinlə komissiyanın ötən dövr ərzində keçdiyi yola bir daha nəzər salaq.***

- Azərbaycan Milli Olimpiya Komitəsinin Ədalətli Oyunlar Komissiyası cənab İlham Əliyevin 1997-ci ildə MOK-un prezidenti seçilməsindən sonra yaradılıb. Cənab İlham Əliyevin təşəbbüsü ilə fəaliyyətə başlayan təşkilat 1998-ci ildə Avropa Ədalətli Oyunlar Hərəkatının (AƏOH) üzvülüyünə qəbul edilib. Həmin vaxt ardıcıl iki il təşkilatın tədbirində ölkəmizi Olimpiya çempionu Rəfiqə Şabanova, sonrakı il MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə təmsil etmişdi. 2000-ci ildən isə mən Azərbaycan Ədalətli Oyunlar Komissiyasının rəhbəri olaraq ölkəmizi qitə və dünya Ədalətli Oyunlar təşkilatlarının tədbirlərində təmsil edirəm. Azərbaycan Ədalətli Oyunlar Hərəkatının ən fəal iştirakçılarından biridir və bu sahəyə öz töhfələrini verib. Bildiyiniz kimi, ədalət prinsipləri təkcə idmanda deyil, təhsildə, gündəlik həyatda da özünü qabarıq şəkildə biruzə verir. Komissiya tərəfindən bu prinsiplərin təbliği məqsədilə bir sıra uğurlu layihələr həyata keçirilib. Biz hər il yarışlarda, tədbir və görüşlərimizdə, eləcə də, idman ilinin yekunlarına həsr olunmuş təntənəli mərasimdə müxtəlif nominasiyalar üzrə Ədalətli Oyunlar Hərəkatına sadiq olanları mükafatlandırırıq. Bundan başqa, fiziki qüsurlu məktəblilərlə görüşlər təşkil olunur, onların digər şagirdlərlə birgə tədbirləri keçirilir.

Fərqlənənlər “Ədalətli oyun prinsiplərinə sadiq bədən tərbiyəsi və idman xadimi”, “Ədalətli oyun prinsiplərinin ən yaxşı təbliğatçısı”, “Ədalətli oyun prinsiplərinə sadiq hakim”, “Ədalətli oyun prinsiplərinə sadiq məşqçi”, “Ədalətli oyun prinsiplərinə sadiq idmançı”, “Ədalətli oyun prinsiplərinə sadiq səfir” nominasiyaları üzrə mükafatlandırılırlar.

Qurum Avropa və Beynəlxalq Ədalətli Oyunlar təşkilatları ilə sıx əməkdaşlıq edir. 2009-cu ildə Avropa Ədalətli Oyunlar Hərəkatının konqresi və Assambleyası, 2015-ci ildə isə Avropa və Beynəlxalq Ədalətli Oyunlar hərəkatlarının birgə konqresi, Baş Assambleyası və qalagecəsi ölkəmizdə yüksək səviyyədə təşkil olundu. Gündəlik həyatda Olimpiya tərbiyəsinin, Ədalətli Oyunlar dəyərlərinin və prinsiplərinin vacibliyinə yönələn bütün təşəbbüslərə verdiyi hərtərəfli dəstəyə görə Azərbaycan Prezidenti İlham Əliyev 2009-cu ildə Avropa Ədalətli Oyunlar Hərəkatının “Şərəf” nişanı ilə təltif edilib. 2015-ci ildə isə dövlətimizin başçısına Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin (BƏOK) xüsusi medalı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya isə Avropa Ədalətli Oyunlar Hərəkatının ordeni təqdim olunub. Bugünlərdə ölkəmizdə cüdo üzrə dünya çempionatı çərçivəsində BƏOK-un Dünya Ədalətli Oyunlar Mükafatlarının təqdimetmə mərasimi də keçirildi. Qalagecədə dörd nominasiya üzrə mükafatların sahibləri məlum oldu. Bunlar “Pyer-de-Kuberten”, “Jak Roqq”, “Con Barotra” və “Villi Daum” mükafatlarıdır.

Qeyd edim ki, Beynəlxalq qurum tərəfindən Azərbaycanın birinci xanımı, respublikanın I vitse-prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevaya “Dünya idmanında və ədalətli oyunların təbliğində nümunəvi xidmətlərinə görə” BƏOK-un Xüsusi medalı təqdim edildi. Bu mükafat xanım Mehriban Əliyevaya çatdırılması üçün BƏOK prezidenti Jeno Kamuti tərəfindən gənclər və idman naziri Azad Rəhimova verildi. Dünya çempionatı ərəfəsində təsis olunmuş mükafat Azad Rəhimov tərəfindən Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya təqdim edildi.

Əldə olunan uğurlar Azərbaycanın ədalət prinsiplərinə sadiqliyinin nümunəsidir. Diqqətinizə çatdırım ki, bu sahəyə ölkəmizdə dövlət səviyyəsində göstərilən diqqət və qayğının, görülən işlərin nəticəsidir ki, BƏOK tərəfindən Regional Ədalətli Oyunlar İnkişaf Mərkəzinin məhz Azərbaycanda açılmasına qərar verilib. Bu Mərkəz yaxın dövlətləri öz ətrafında birləşdirərək ədalətli oyunlar hərəkatının təbliğinə öz töhfələrini verəcək.

***- Maraqlıdır ki, BƏOK-un Regional Ədalətli Oyunlar İnkişaf Mərkəzinin əsas fəaliyyəti nədən ibarət olacaq?***

- Azərbaycan dünyada ədalət prinsiplərinə sadiq ölkə kimi tanınır. Biz çalışacağıq ki, AzƏOK ilə Regional Mərkəzin fəaliyyətini birgə həyata keçirək. Bildiyiniz kimi, AzƏOK tərəfindən indiyədək bir sıra uğurlu tədbirlər həyata keçirilib. Mərkəzin əsas fəaliyyəti idmançı, hakim, məşqçi və mütəxəssislərə ədalət prinsipini aşılamaq, insanları bu ruhda yaşamağa dəvət etməkdir.

İdman xalqlar arasında dostluğa, qardaşlığa, qarşılıqlı anlaşmaya yardım göstərən vasitələrdən biri olmaqla yanaşı, ədalətli mübarizəni, sağlam həyat tərzini təbliğ edir, insanın fiziki və mənəvi tərbiyəsində mühüm rol oynayır. Təəssüf ki, dünyanın bəzi ölkələrində bu sahəyə demək olar ki, diqqət yönəldilməyib. Hazırda dünya idmanında haqsızlıqlara rast gəlinir.

Mərkəz bu haqsızlıqlara, nizam-intizamdan kənar hərəkətlərə və ədalətsizliyə qarşı maarifləndirmə işləri həyata keçirəcək. Dünya idmanı hazırda dopinq qalmaqalları ilə üzləşib. Qadağan olunmuş preparatlardan istifadə ədalət prinsiplərinə zidd addımdır. Həmçinin hakimlərin idmançılara qarşı qərəzli mövqedən çıxış etməsi istiqamətində də maarifləndirmə işinin aparılması vacibdir. Hakimlərin qərəzli yanaşması idmançıların gələcək karyerasının zədələnməsinə, hətta onların idmandan uzaqlaşmasına gətirib çıxarır. Paralimpiyaçı idmançılar ədalət prinsiplərinin önündə dururlar. Belə ki, sağlam həyat tərzi ilə yaşamaq, idman arenasında əzmkarlıq nəticəsində möhtəşəm qələbələrin qazanılması, ruh yüksəkliyi və həyat eşqi bu idmançıların amalıdır. Biz çalışacağıq ki, bu amilləri Mərkəzə üzv olan ölkələrdə də təbliğ edək.

Universitetlərdə, məktəblərdə, həmçinin uşaq bağçalarında görüşlərin təşkil olunması istiqamətində işlər görülür. Bu layihə vasitəsilə uşaqlara və gənclərə ədalətli oyunların ideyası, fəlsəfəsi və amalı çatdırılmalıdır. Mərkəzin fəaliyyəti zamanı aidiyyəti qurumların işindən də istifadə edəcəyik. İl ərzində 4-5 tədbirin təşkil olunması nəzərdə tutulub. Maarifləndirmə tədbirlərinin təkcə paytaxtda deyil, bölgələrdə də keçirilməsi planlaşdırılır. Qeyd edim ki, mərkəzə 12 dövlət daxildir. Mərkəz ildə bir dəfə üzv ölkələrin Bakıda görüşünü təşkil edəcək. Əgər Mərkəzə üzv ölkələr bu tədbirlərə ev sahibliyi etmək üçün müraciət etsələr, təbiiki, biz tədbirin təşkilini onlara həvalə edə bilərik. Mərkəzin artıq yeni loqosu müəyyənləşib, həmçinin rəsmi internet səhifəsi də fəaliyyət göstərəcək.

AzƏOK-un 20 illik yubiley mərasimində Mərkəzə daxil olan Qazaxıstan və Gürcüstandan nümayəndələr iştirak etdilər. Onlar səmimi olaraq bildirdilər ki, bundan sonra öz ölkələrində ədalət prinsiplərinin təbliğinə daha geniş yer verəcəklər.

İnanıram ki, yaradılan yüksək səviyyəli qarşılıqlı əməkdaşlıq sayəsində beynəlxalq qurum tərəfindən bizə göstərilən etimadı doğruldacağıq.

***-AzƏOK-un 20 illik yubiley mərasimində qurumun yeni loqosu, eləcə də, müəllifi olduğunuz “Azərbaycanda Ədalətli Oyunlar-20 il” kitabı da ictimaiyyətə təqdim olundu.***

-AzƏOK-un yeni loqosunun müəllifi Orxan Qocadır. Onun yaratdığı yeni, maraqlı dizaynı ilə fərqlənən loqo, həqiqətən də, özündə əsl ədalət prinsiplərini əks etdirir. Olimpiya halqalarının rənglərindən ibarət loqo oyun, bərabərlik, nəzarət, qələbə,



ədalət rəmzlərini özündə birləşdirir.

Müəllifi olduğum “Azərbaycanda Ədalətli Oyunlar-20 il” kitabı AzƏOK-un 20 illik fəaliyyətindən bəhs edir. Burada dünyada ədalət prinsiplərini təbliğ edən hadisələr, eləcə də, ədalət prinsiplərinə zidd olan məqamlar öz əksini tapıb.

Bu kitab antik dövr Yunanıstanında keçirilən Olimpiya Oyunlarından başlayaraq, əsrlər boyu zənginləşməklə müasir dovrümüzə qədər gəlib çatmış Ədalətli Oyun anlayışının mahiyyətinin izahına və təbliğinə həsr olunub. Kitabda, eyni zamanda, Olimpiya, Ədalətli Oyun idealları və prinsiplərinin ölkəmizdə öyrənilməsi, tətbiqi və təbliği istiqamətində rəsmi səviyyədə aparılan işlər və göstərilən fəaliyyətlər araşdırılıb, keçirilən yerli və beynəlxalq tədbirlər barədə geniş məlumatlar da təqdim edilib.

*Aysel Sultanova*

Voleybol

# “Gündoğar ölkə”də dünya çempionatı həyəcanı başladı

Sentyabrın 29-da Yaponiyada təşkil olunan qadın voleybolçular arasında 18-ci dünya çempionatına start verilib. Yaponiyanın 6 şəhərində keçirilən mundialda 24 milli komanda iştirak edir. Oktyabrın 20-dək davam edəcək çempionatda Azərbaycan millisi də qüvvəsini sınayır. Baş məşqçi Faiq Qarayevin rəhbərliyi altında millimiz çempionatda Rusiya, ABŞ, Tailand, Trinidad Tobaqo və Koreya Respublikası yığmaları ilə birgə “C” qrupunda mübarizə aparır. Voleybolçularımız çempionatın birinci turunda hazırkı çempion ABŞ komandası ilə qarşılaşıblar. Gərgin keçən oyun ABŞ millisinin 3:0 hesablı qələbəsi ilə başa çatıb (29:27, 25:21, 25:21).

Sentyabrın 30-da qadın voleybolçulardan ibarət Azərbaycan millisi dünya çempionatında Koreya Respublikasının yığması ilə qarşılaşıb.

Oyunun birinci hissəsində tam üstünlüyə malik olan idmançılarımız 25:18 hesabı ilə qalib gəliblər. Oyunun ikinci seti də idmançılarımızın tam üstünlüyü şəraitində davam edib və voleybolçu qızlarımız Koreya Respublikasının millisini 25:18 hesabı ilə məğlub ediblər.

Üçüncü setdə psixoloji üstünlüyü ələ alan Koreya Respublikasının idmançıları 25:23 hesabı ilə qalib gəliblər - 2:1.

Oyunun dördüncü setində özünü ələ almağı bacaran millimiz Koreya Respublikasının idmançılarını növbəti dəfə 25:18 hesabı ilə məğlub ediblər - 3:1.

Millimiz növbəti görüşünü bu gün Rusiya yığmasına qarşı keçirəcək.

Məlumat üçün qeyd edək ki, dünya çempionatı Yaponiyanın 6 şəhərində təşkil edilib. Millimizin də daxil olduğu “C” qrupunun oyunları Kobe şəhərində keçirilir.

Xatırladaq ki, qaydalara əsasən, ilkin qrup mərhələsində 24 komanda 4 qrupda mübarizə aparır. Hər qrupda yer alan 6 komandadan ən yüksək nəticə göstərən 4-ü ikinci mərhələyə vəsiqə qazanacaq. Növbəti raundda 16 komanda iki qrupa bölünəcək. Hər bir



qrupda 3 ən güclü komanda mübarizəni üçüncü qrup mərhələsində davam etdirəcək. Bu qrupların hər birində ilk iki yeri tutan komandalar yarımfinala yüksələcək.

Qeyd edək ki, Azərbaycanın qadınlardan ibarət komandası artıq dördüncü dəfədir ki, dünya çempionatında iştirak edir.

Badminton

# Bakıda badminton üzrə Avropa və dünya çempionatı keçirilə bilər

Növbəti il Bakıda keçiriləcək “Azerbaijan İnternational-2019” turnirindən gözləntilərimiz böyükdür. Mən ilk Avropa Oyunları



zamanı Bakıda oldum. Azərbaycanın böyük və nüfuzlu idman tədbirlərini necə yüksək səviyyədə təşkil etdiyinin əyani şahidiyəm. Bu mənada böyük təcrübə və hazır idman infrastrukturu var. Bu sözləri Avropa Badminton Konfederasiyasının baş katibi Brayan Aqerbak deyib.

B.Aqerbak bildirib ki, Azərbaycan Badminton Federasiyası inkişaf edir və bu cür böyük idman yarışlarını təşkil etməyə hazırdır. Avropa Oyunlarında qazanılan böyük təcrübə bu kimi idman tədbirlərinin təşkilində mühüm rol oynayır. Düşünürəm ki, badminton üzrə beynəlxalq turnir də ən yüksək səviyyədə təşkil olunacaq. İnfrastruktur və böyük beynəlxalq təcrübəyə əsaslanaraq deyə bilərəm ki, gələcəkdə Bakıda badminton üzrə Avropa və dünya çempionatı keçirilə bilər. Xüsusilə qeyd etməliyəm ki, Azərbaycanda idmana böyük diqqət ayrılır. İlk Avropa Oyunlarından sonra azərbaycanlı badmintonçular beynəlxalq turnirlərdə yaxşı mübarizə aparırlar. Azərbaycan Badminton Federasiyası Avropa Badminton Konfederasiyasının ümumi fəaliyyətində, illik tədbirlərimizdə fəal iştirak edir. Azərbaycan Badminton Federasiyası Avropa badminton ailəsinin çox əhəmiyyətli tərəfdaşıdır və bu əməkdaşlığın gələcəkdə də davam edəcəyinə inanıram.

Qeyd edək ki, “Azerbaijan İnternational-2019” beynəlxalq badminton turniri gələn il iyunun 6-9-da Bakı İdman Sarayında keçiriləcək. Beş kateqoriya üzrə qalib və mükafatçıların müəyyənləşəcəyi yarışın ümumi mükafat fondu 25 min ABŞ dollarıdır.

* * *

Veteran badmintonçumuz Mirzə Orucov İspaniyanın Quadalahara şəhərində keçirilən veteran badmintonçuların Avropa çempionatında iştirak edib. Mübarizəyə 1/32 finaldan başlayan Mirzə Orucov bu mərhələdə Yaroslav Osiepa ilə qarşılaşıb. Görüş badmintonçumuzun 2:0 (21-17,21-16) hesablı qələbəsi ilə başa çatıb. Mirzə Orucov 1/16 finalda almaniyalı Klaus Buşbeklə qarşılaşıb. Almaniya təmsilçisi Mirzə Orucovu 2:0 (21-19,21-14) hesabı ilə məğlub edib. Veteran badmintonçuların qitə çempionatına sentyabrın 30-da yekun vurulub.

Formula-1

# Hamiltondan növbəti qələbə

Sentyabrın 28-30-da Soçidə 2018-ci il Formula-1 mövsümünün Rusiya Qran-Prisi keçirilib. “Mercedes”in ingiltərəli pilotu Luis Hamilton Rusiya Qran-Prisinin qalibi olub.

Beləliklə, Hamilton ardıcıl üçüncü qələbəsini qazanıb.

Yarışda ikinci yeri finlandiyalı Valteri Botas, üçüncü yeri isə almaniyalı Sebastian Fettel tutub.

Qeyd edək ki, bununla da, Hamilton və Fettel arasındakı xal fərqi 50-yə çatıb.

Məlumat üçün bildirək ki, Rusiyada beşinci dəfədir keçirilən Qran-Pri yarışlarında yalnız “Mersedes” komandasının pilotları - britaniyalı Luis Hamilton (3 dəfə), almaniyalı Niko Rosberq və finlandiyalı Valteri Bottas qələbəyə nail olublar.

* * *

“Haas”ın pilotları Romen Qrojan və Kevin Maqnussen 2019-cu il mövsümündə bu komandanın heyətində çıxışlarını davam etdirəcəklər.

“Haas”ın rəhbəri Günter Ştayner deyib: “Bolidimizin və komandanın inkişafını sürətləndirməkdən ötrü lap əvvəldən bizə təcrübəli pilotlar lazım idi. Hazırda Romen Qrojan və Kevin Maqnussenin timsalında bizim yaxşı və təcrübəli iki yürüşçümüz var. Biz ötən mövsümlə müqayisədə gözəçarpan dərəcədə irəliləmişik, buna görə də pilotların tərkibini qoruyub saxlamaq qərarı çox sadə oldu”.




Kevin Maqnussen bu komandanın heyətində 2017-ci il mövsümündən çıxış edir. O, kollektivdə Esteban Qutyerresi əvəzləmişdi. Romen Qrojan isə 2016-cı ildə “Haas” Formula-1 yarışlarında iştiraka başlayandan onu təmsil edir.

İdman klublarında





# "Samuray"lardan "Cüdo Klub 2012"də ustad dərsləri

***Ölkəmiz daha bir turnirə, cüdo üzrə dünya çempionatına uğurla ev sahibliyi etdi. Milli Gimnastika Arenasında təşkil olunan yarışda 125 ölkədən 758 (460 kişi, 298 qadın) idmançı qalib adı uğrunda mübarizə apardı. Çempionatın fərdi yarışlarında komandamızın üzvlərindən Uşangi Kokauri (+100 kq) gümüş, Hidayət Heydərov (73 kq) isə bürünc medal qazandı. Millimiz bu nəticə ilə çempionatının fərdi yarışlarını 11-ci pillədə başa vurdu. Komandamız kişilərin mübarizəsində 6-cı, qadınların yarışında isə 24-cü yerlə kifayətləndi. Bakıdakı dünya çempionatında 125 ölkədən cəmi 22-si medal qazandı. Yarışda qazanılan 14 qızıl medaldan yarısı Yaponiya komandasına qismət oldu. "Cüdonun yaradıcıları" qadınların yarışında 5, kişilərin mübarizəsində 2 qızıl medala yiyəldilər. Ümumilikdə 56 medalın 16-sı (7 qızıl, 5 gümüş və 4 bürünc) "Gündoğar ölkə"yə qismət oldu. Bakıya tam heyətlə - 18 cüdoçu ilə gələn Yaponiya yığmasının üzvlərindən yalnız 2-si medalsız qaldı. Yaponiya komandası həmçinin qarışıq komanda yarışlarının da qalibi oldu.***

Məlumat üçün qeyd edək ki, çempionatın lideri olan Yaponiya komandası yarışlara hazırlığın son mərhələsini "Cüdo Klub 2012"nin dünya standartlarına cavab verən məşq bazasında keçib. Sentyabrın 13-dən Bakıya gələn dünya şöhrətli çüdoçular burada yaradılmış şəraiti yüksək dəyərləndiriblər. Klub rəhbərliyi cüdonun vətənindən gələn idmançılara təmənnasız xidmət göstərib. "Cüdo Klub 2012" İctimai Birliyinin sədri, Azərbaycan Cüdo Federasiyası İcraiyyə Komitəsinin üzvü, cüdo üzrə veteran ustalar arasında dünya və Avropa çempionatlarının dəfələrlə mükafatçısı olmuş Azər Əsgərovun göstərişi ilə klubda onlar üçün hər cür şərait yaradılıb.

Yaponiya komandası Azərbaycanda gördükləri qonaqpərvərliyə cavab olaraq çempionat başa çatdıqdan sonra "Cüdo Klub 2012"də ustad dərsləri təşkil etmək barədə təşəbbüs irəli sürüb. Sentyabrın 28-də dünyanın tanınmış yapon cüdo ustaları tərəfindən təşkil olunan utad dərslərində kişilərdən ibarət yığma komandamızın köməkçi məşqçisi Elxan Məmmədov, qadınlardan ibarət millimizin baş məşqçisi Natiq Bağırov, eləcə də ölkəmizin tanınmış klublarından olan məşqçilər, idmançılar və veteran cüdoçular iştirak ediblər.

Azərbaycan cüdo tarixində ilk dəfə keçirilən bu mötəbər tədbirə tam heyətlə gələn "samuray"lar "Cüdo Klub 2012"nin geniş məşq zalına toplaşmış azərbaycanlı məşqçilər və idmançılar tərəfindən alqışlarla qarşılanıb. Klubun baş məşqçisi, Əməkdar məşqçi Tərlan Həsənov qonaqları salamlayıb, onları Bakıdakı qələbə münasibətilə təbrik edib. Yaponiya komandasına "Cüdo Klub 2012"nin rəhbərliyi adından qiymətli hədiyyə və xatirə vımpelləri təqdim olunub. Sonra cüdonun vətənindən gəlmiş usta idmançılar öz bilik və bacarıqlarını, azərbaycanlı məşqçilər və böyük idmanda ilk addımlarını atan yeniyetmə və gənclərlə bölüşüblər. Ustad dərslərində Yaponiyanın tanınmış 4 usta cüdoçusu - qadınlar arasında Afina-2004 Yay Olimpiya Oyunlarının qalibi, dünya çempionu (2007) Maki Tsukada, dünya çempionu (2010), Asiya Oyunlarının qalibi (2010, 2014) Hiroyuki Akimoto, Afina-2004 Yay Olimpiya Oyunlarının qalibi, dünya çempionu (2003) Keiji Suzuki, üçqat dünya çempionu (1999, 2001, 2003), Sidney-2000 Yay Olimpiya Oyunlarının qızıl medalçısı, Asiya Oyunlarının ikiqat qalibi (1998, 2002) və cüdo üzrə kişilərdən ibarət Yaponiya yığma komandasının baş məşqçisi Kosei İnuyi öz ustalıqlarını nümayiş etdirib, müxtəlif fəndlərin yerinə yetirilməsi barədə nəzəri və praktik tövsiyələr veriblər. "Seoi-nage", "uçi-mata", "tomoe-nage", "de-aşi-barai" fəndlərinin icrasını cüdoçularımıza əyani olaraq göstərən Olimpiya və dünya çempionları həmçinin, azərbaycanlı məşqçilərin suallarını da cavablandırıblar.

Ustad dərsləri azərbaycanlı məşqçilər üçün faydalı olmaqla yanaşı, məşq zalına toplaşmış çoxsaylı uşaq və yeniyetmə cüdoçularımızın yaddaşında da unudulmaz hadisə kimi qalıb. Tədbirin sonunda Yaponiya və Azərbaycan



cüdoçuları dostluq və əməkdaşlıq əlaqələrini bundan sonra da davam etdirəcəklərini bildiriblər.

Ustad dərsləri tədbir iştirakçılarının xatirə şəkli çəkdirməsi ilə başa çatıb.

Məlumat üçün qeyd edək ki, Azərbaycanda cüdonun inkişafına və kütləviliyin artırılmasına dəstək vermək məqsədilə altı il əvvəl yaradılmış "Cüdo Klub 2012" qısa müddətdə özünün nailiyyətləri ilə ölkəmizin idman ictimaiyyətinin rəğbətini qazanıb. Klubun ən müasir dünya standartlarına cavab verən məşq bazasında nüfuzlu məşqçilərin yetişdirdiyi idmançılar son vaxtlar cüdo, karate, sambo və digər idman növləri üzrə yerli və beynəlxalq miqyaslı yarışlarda yüksək nəticələr qazanıblar.

Tədbirdən sonra "Cüdo Klub 2012"nin direktoru Hafis Hacıyev və cüdo üzrə kişilərdən ibarət Yaponiya yığma komandasının baş məşqçisi Kosei İnuyi "Olimpiya dünyası" qəzetinə təəssüratlarını bölüşüblər.

## "Fəndlərin incəliklə yerinə yetirilməsi idmançılarımız üçün çox maraqlı idi"

***Hafis Hacıyev ("Cüdo Klub 2012"nin direktoru):***

- Yaponiya Cüdo Federasiyasının nümayəndələri milli komandanın dünya çempiontına hazılığının son mərhəsini Azərbaycanda təşkil etmək üçün hələ iyul ayında ölkəmizə səfər etmişdilər. Yaponiyalı mütəxəssislər öz tələblərinə və standartlarına uyğun yer seçmək üçün bir sıra idman arenalarına baş çəkib, mövcud vəziyyəti yerində öyrəndikdən sonra yekdilliklə "Cüdo Klub 2012"nin üzərində dayandılar. Qonaqlar buradakı zalların və infrastrukturun cüdo üzrə məşqləri ən yüksək səviyyədə təşkil etməyə imkan verdiyi üçün onları tam qane etdiyini bildirdilər. "Cüdo Klub 2012" İctimai Birliyinin sədri Azər Əsgərovun səyi nəticəsində yaponiyalı idmançıların dünya çempionatına mükəmməl şəkildə hazırlaşması üçün klubumuzda hər cür şərait yaradıldı. Yaponiya millisi ölkəmizə idmançılar, məşqçilər və digər heyət üzvləri olmaqla, ümumilikdə 90-a yaxın nümayəndə ilə gəlmişdi. Klubda onlara təmənnasız xidmət göstərildi. Dünya çempionatından



sonra isə yaponiyalı usta cüdoçular klubumuzda ustad dərsləri keçdilər. Ustad dərslərində 100-ə yaxın yeniyetmə, gənc və veteran idmançı iştirak edirdi. Bu tədbirdə təkcə "Cüdo Klub 2012"nin idmançıları deyil, həm də Bakıda fəaliyyət göstərən digər klubların yetirmələri də var idi. Düzdü, idmançılarımız bu fəndləri bilirlər. Lakin cüdonun yaradıcıları tərəfindən fəndlərin incəliklə yerinə yetirilməsi idmançılarımız üçün çox maraqlı idi. İnanıram ki, bu tədbir yeniyetmə və gənc idmançıların təcrübə qazanmasına, fəndlərin daha dəqiq mənimsənilməsinə, həmçinin onların hazırlıq səviyyəsinə müsbət təsir göstərəcək. Çalışacağıq ki, gələcəkdə də tanınmış idmançıların iştirakı ilə ustad dərsləri təşkil edək.

## "Azərbaycanlı idmançılar bizim üçün güclü rəqiblərdən sayılırlar"

***Kosei İnuyi (Cüdo üzrə kişilərdən ibarət Yaponiya milli komandasının baş məşqçisi):***

- Düzü, Azərbaycanda belə bir infrastrukturun, cüdo mərkəzinin olmasından təəccübləndik. "Cüdo Klub 2012"dəki şəraitdən razı qaldıq. Buna görə də dünya çempionatına hazırlığın yekun həlledici mərhələsini keçmək üçün bu məkana üstünlük verdik. Bakıda olduğumuz az



müddətdə Azərbaycanda cüdoya böyük marağın olduğunu gördük. Bu səbəbdən də burada ustad dərsləri keçməyi məqsədəuyğun hesab etdik. Etiraf edim ki, ki, azərbaycanlı idmançılar hər kəs üçün, eləcə də bizim üçün güclü rəqiblərdən sayılırlar. Mən özüm də bir neçə dəfə azərbaycanlı cüdoçularla qarşılaşmışam və həqiqətən çox çətinlik çəkmişəm. Lakin cüdoçularınız nailiyyətlərini artırmaq və böyük qələbələr qazanmaq üçün öz üzərlərində çox çalışmalıdırlar.

*Azər Əlizadə*

Futbol

# "Neftçi" və "Qarabağ" liderliyini davam etdirir



Sentyabrın 29-30-da Topaz Premyer Liqasında altıncı turun oyunları keçirilib. Turun açılış matçında "Neftçi" klubu doğma azarkeşlər önündə "Səbail" komandasını qəbul edib. Oyunun favoriti sayılan "Neftçi" hesabı erkən qolla açıb. Müdafiəçilərin kobud səhvini "ağ-qara"lıların braziliyalı hücumçusu Dario bağışlamayıb - 1:0. Qoldan sonra yenidən fəal oyun nümayiş etdirən paytaxt təmsilçisi 25-ci dəqiqədə rəqibi ikinci dəfə məyus edib. Baqali Dabo adını tabloya yazdırıb - 2:0.

Matçın 42-ci dəqiqəsində Premyer Liqanın flaqmanı Darionun sayəsində üçüncü dəfə rəqibi meydanın mərkəzinə dəvət edib. Oyunda son nöqtəni isə "Neftçi"nin futbolçusu Baqali Dabo qoyub - 4:0.

"Neftçi"nin əzəli rəqibi Ağdamın "Qarabağ" klubu "Əlincə Arena" stadionunda çempionatın debütantı "Sabah" komandası ilə qarşılaşıb. Görüş ağdamlıların 2:0 hesablı qələbəsi ilə başa çatıb. Qurban Qurbanovun yetirmələrinin heyətində 82-ci dəqiqədə Miçel, 89-cu dəqiqədə isə İnnosent Emeqara fərqləniblər.

Topaz Premyer Liqasının altıncı turuna sentyabrın 30-da keçirilən iki qarşılaşma ilə yekun vurulub. Günün ilk oyunu Qəbələ şəhər stadionunda təşkil olunub. "Qəbələ" komandası doğma azarkeşlər önündə "Keşlə"ni qəbul edib.

FİFA referisi Rəvan Həmzəzadənin idarə etdiyi görüş 1:1 hesablı heç-heçə ilə yekunlaşıb. Hesabı 5-ci dəqiqədə "Keşlə"nin hücumçusu Amil Yunanov açıb. Qarşılaşmanın ikinci hissəsində Stiven Monroz fərqlənərək oyunda hesabı bərabərləşdirib. Bu nəticədən sonra "Qəbələ" xallarının sayını 5-ə çatdırıb. "Keşlə" isə 2 xal toplayıb.

Turun sonuncu oyunu "Bayıl Arena"da "Sumqayıt" və "Zirə" komandaları arasında təşkil olunub. Görüş "Sumqayıt" klubunun minimal hesablı qələbəsi ilə başa çatıb. Oyunda yeganə qolun müəllifi Atilla Yıldırım olub.

Bu nəticələrdən sonra aktivində 16 xalı olan "Neftçi" və "Qarabağ" klubları tura liderlik edir. 10 xal toplayan "Sumqayıt" və "Sabah" üçüncü və dördüncü yerləri bölüşürlər. Digər pillələrdə isə müvafiq olaraq "Qəbələ", "Səbail", "Zirə" və "Keşlə" qərarlaşıb.

Bölgə idmanı

# *Ağdamda "Açıq əyləncəli futbol məktəbi" layihəsi keçirilib*

Ağdam rayonunun Quzanlı qəsəbəsindəki Olimpiya İdman Kompleksində təşkil olunan "Açıq əyləncəli futbol məktəbi" layihəsi üzrə kütləvi idman tədbirində 200 uşaq və yeniyetmə iştirak edib.

Olimpiya İdman Kompleksinin futbol meydançasında keçirilən tədbirdə Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənov, AFFA-nın birinci vitse-prezidenti, Milli Məclisin deputatı Rauf Əliyev, Milli Məclisin deputatları Sabir Hacıyev və Aqil Abbas çıxış edərək, ölkəmizdə idmana göstərilən dövlət qayğısından danışıb, "Açıq əyləncəli uşaq futbol məktəbi" layihəsinin gənc nəslin sağlam böyüməsində müsbət əhəmiyyətini qeyd ediblər. Bildirilib ki, layihə uşaqların həyatını, yaşayış tərzini əyləncəli idman vasitəsi ilə bir qədər dəyişmək, onların idmana, o cümlədən futbola marağını artırmaq, uşaq futbolunun inkişafına dəstək vermək məqsədi daşıyır.

Mərasimdə uşaqlara müxtəlif idman geyimləri və ləvazimatları təqdim olunub. Sonra xüsusi idman forması geyinmiş uşaqlar əyləncəli futbol nümayiş etdiriblər.

* * *

Daşkəsən rayon Uşaq Gənclər İdman Şahmat Məktəbində "21 sentyabr Beynəlxalq Sülh günü" münasibətilə ümumtəhsil məktəblərinin 2002-2004-cü illər təvəllüdlü şagirdləri arasında stolüstü tennis üzrə rayon birinciliyi keçirilib.

Yarışın keçirilməsində əsas məqsəd "21 sentyabr Beynəlxalq Sülh günü"nün qeyd olunması, rayonda idmanın kütləviliyinin təmin olunması və bu idman növünün inkişaf etdirilməsi olub. Turnirdə 21 idmançı iştirak edib. Gərgin keçən mübarizənin sonunda A.Mürsəlov adına 2 saylı tam orta məktəbin şagirdi Fuad Məmmədov birinci yerə layiq görülüb. S.Vurğun adına 4 saylı tam orta məktəbin şagirdi Fərid Hüseynzadə ikinci, İ.Nəsimi adına 1 saylı tam orta məktəbin şagirdi Elariz Əlizadə isə üçüncü yeri tutub.

Qalib idmançılar rayon Gənclər və İdman idarəsi tərəfindən diplomla təltif olunublar.



* * *

Bərdə rayonunun ümumtəhsil məktəblərinin komandaları arasında keçirilən "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə birinciliyin qalibləri müəyyənləşib. Rayon Gənclər və İdman İdarəsinin və Təhsil Şöbəsinin təşkilatçılığı ilə Bərdə şəhər 4 nömrəli tam orta məktəbdə keçirilən yarışda 13 ümumtəhsil məktəbin komandası iştirak edib. Gənclər və İdman İdarəsinin rəisi vəzifəsini icra edən Aydın Qasımov və Təhsil Şöbəsinin metodisti Anar Rəsulov gənclərin ordu sıralarına hazırlanmasında və vətənpərvərlik ruhunun yüksəldilməsində ölkəmizdə və eləcə də Bərdə rayonunda görülən işlərdən danışıb, yarışın əhəmiyyətini qeyd ediblər. Məktəblilər 100 metr məsafəyə qaçış, qumbara atmaq, güllə atıcılığı və turnikdə dartınma üzrə mübarizə aparıblar. Birinciliyin yekun nəticələrinə əsasən, Kətəlparaq kənd tam orta məktəbinin komandası birinci yerə layiq görülüb. Bərdə şəhər 4 nömrəli tam orta məktəbinin komandası ikinci, 8 nömrəli tam orta məktəbin komandası üçüncü yerə layiq görülüblər. Qalib komandalar və mərhələlərdə ən yüksək nəticə göstərmiş komanda üzvləri Bərdə rayon Gənclər və İdman İdarəsinin müvafiq diplomları ilə təltif olunub.

* * *

Masallı Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə Masallı Cüdo Təlim Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş cüdo üzrə yeniyetmələr və gənclər arasında rayon birinciliyi başa çatıb. İki gün davam edən yarışda 80 yeniyetmə və gənc 10 çəki dərəcəsində qələbə uğrunda mübarizə aparıb. Rayon birinciliyinin qalibləri diplom və hədiyyələrlə mükafatlandırılıblar.

* * *

Gürcüstanın paytaxtı Tbilisi şəhərində keçirilən qarışıq döyüş növləri və kikboksinq üzrə dünya kuboku yarışlarında astaralı idmançılar uğurla çıxış ediblər. Üç gün davam edən beynəlxalq yarışda Azərbaycan, Gürcüstan, Rusiya, Ukrayna, Türkiyə, Belarus, Ermənistan və İranın idmançıları qələbə uğrunda mübarizə aparıblar. Qarışıq döyüş növləri üzrə yarışda astaralı idmançılardan Sadiq Tahirov (45 kq) ikinci, Yusif Mirzəyev (78 kq) üçüncü, kikboksinq üzrə keçirilən yarışlarda isə Zamin Baxşıyev (65 kq) birinci yeri tutub. İdmançıları yarışa budo döyüş növləri üzrə məşqçi-müəllim, VI dan qara kəmər ustası Ramiq Rəhmanov və budo döyüş və karate idman növləri üzrə məşqçi-müəllim, III dan qara kəmər ustası Zamin Baxşıyev hazırlayıblar.

# İdman ruhlu adam

## Futbol ehtirasları azarkeşlərin həyatının atributlarına çevrilib

**Bizim müsahibə**



*Mobil İsmayılov Cəbrayıl rayonunda doğulub, ixtisasca hüquqşünasdır. Uzun müddət hüquq-mühafizə orqanlarında fəaliyyət göstərib. Mobil müəllimin həm də gözəl qələmi var. Futbola dərin sevgisi olan bu insanın özünəməxsus faktlara söykənən təhlili yazıları eksklüziv olaraq "Olimpiya dünyası" qəzetində və "olimpnews.az" saytında dərc olunur.*

***- Mobil müəllim, sizin futbol dünyasının ulduzları, ümumiyyətlə, futbolla bağlı maraqlı yazılarınız dərc olunur. Qəzetimizin çoxsaylı oxucuları, futbol azarkeşləri bu yazıların müəllifini yaxından tanımaq istərdilər....***

- İxtisasca hüquqşünasam. Uzun müddət prokurorluq orqanlarında çalışmışam. Uşaqlıq çağlarından çox sahələrə marağım böyük olub: ədəbiyyata,incəsənətə, idmana.... Ümumiyyətlə, uşaqlıqdan, necə deyərlər, "idman ruhlu" olmuşam. İdmanın əksər növlərinə maraq göstərərək yarışları izlərdim. Futboldan savayı, şahmat, hokkey, voleybol, həndbol, basketbol, vaterpol (su polosu) də ön sırada idi. Futbol mövzusunda rəsmlər çəkməyi çox xoşlayırdım. Qəzet-jurnallara baxaraq oradakı şəkilləri, necə deyərlər, improvizasiya edərək albomlara köçürürdüm. Təsəvvür edin ki, Ağcabədidə orta məktəbdə oxuduğum illərdə rayonda yalnız mən iki il ərzində "Şaxmatı v SSSR" jurnalına abunə yazılmışdım. Tələbəlik illərində bütün şahmat jurnallarını müntəzəm olaraq alırdım. Həmin jurnalların böyük əksəriyyəti cildlənmiş şəkildə indi də məndə qalır. Şahmat, futbol, hokkeylə bağlı qəzet və jurnallarda keçirilən viktorinalar və müsabiqələrdə bir qayda olaraq, iştirak etməklə əksər hallarda qaliblər sırasında olardım. Respublika Prokurorluğunda işlədiyim illərdə də nəinki "idman ruhum" qalmışdı, əksinə daha da alovlanmışdı. Şahmat yarışlarında, müsabiqə və viktorinalarda yenə də iştirak edir, həftədə iki dəfə işdən sonra keçmiş "Spartak" stadionunda mini- futbol oyunlarına qatılırdım. "Neftçi"nin Bakıdakı oyunlarına isə stadionda baxırdım.

***- Futbola belə böyük maraq sizdə hardandır?***

- Uşaqlıq illərim Cəbrayıl və Zəngilan rayonlarında keçib. Uşaqların böyük əksəriyyətində olduğu kimi, mənim uşaqlıq dünyamda da futbolun ayrıca yeri olub. O vaxtlar da uşaqlar indi olduğu kimi, futbola daha çox meyl edirdilər. Siniflər, məhəllələr, məktəblərarası yarışlar uşaqların sevimli əyləncəsi idi. O illərdə dünya şöhrətli hakim Tofiq Bəhramovun "1001-ci matç" kitabı əldən-ələ gəzirdi. Bu kitabın bütün fəsillərini əzbərdən bilirdim. Yolum Bakıya düşən kimi satışda olan futbol kitablarını alırdım. Futbol oynamaqdan doymazdım. Daha çox özümdən yaşca böyük uşaqlarla oynamağa həvəs göstərərdim. Hətta o illərdə bir dəfə çox populyar olan məktəblilərin "Sevinc" kuboku uğrunda respublika birinciliyinin rayonlararası zona yarışında yerli komandanın tərkibində oynamışam da.

***- Yəqin ki, ailənizdə də futbola maraq böyük olub.***

- Atam da futbol həvəskarı olduğundan televiziyada göstərilən oyunlara birlikdə baxardıq. O, çoxsaylı qəzet-jurnallara abunə yazıldığından həmişə idmanla, xüsusən futbola bağlı ətraflı məlumatlara malik olardım. Bir sözlə, uşaqlıq, yeniyetməlik illərindən dünyanın futbol aləmindən xəbərdar idim. Doğma "Neftçi"nin də çıxış etdiyi SSRİ çempionatının güclülər dəstəsinin komandalarının heyətlərini, statistik göstəricilərini, oyunların qrafikini əzbər bilirdim. Artıq çox illər keçmiş, zaman dəyişmişdi. Amma mənim idmana, xüsusən futbola olan münasibətim dəyişməmişdir. Futbol dünyası ilə yaxından tanışlığımın, belə demək mümkünsə, dostluğumun kökləri, sirləri bundan ibarətdir.

***- Futbolda baş verən hadisələrə özünəməxsus yanaşma tərziniz var. Necə düşünürsünüz, fikirlərinizi oxuculara tam çatdıra bilirsinizmi?***

- Öncə demək istərdim ki, mən xüsusi olaraq futbol mövzularını axtarmıram. Maraqlı futbol mövzuları, necə deyərlər, özləri gəlib məni tapır. Əslində elə mövzular seçilməlidir ki, geniş oxucu kütləsinin marağına səbəb olsun. Sirr deyildir ki, futbol ehtirasları azarkeşlərin həyatının atributlarından birinə çevrilib. Çılğın azarkeşlər futbolun sevincini də, stressini də paralel olaraq yaşayırlar. Bu hisslər futbolsevərlərin psixologiyasında birdəfəlik özünə yer eləyir. Bəli, futbolu sevənlər istər-istəməz izaholunmaz duyğularla, sevinclə, məmnunluqla, yanaşı, əsəbilik, kədər, streslə də üz-üzə qalmalı olurlar. Dramatik anlar yaşanan futbol oyunlarında nələr olmur.... Təbii ki, dediklərimizin hamısı var. Beşlik ölkələrinin çempionatlarının oyunlarının demək olar ki, hamısını seyr edirəm. Eləcə də, Çempionlar Liqasının oyunlarını və həmçinin digər matçları da. Elə oyunlar da olur ki, ürək döyüntüləri ilə izləyirəm. Üzücü hisslər keçirdiyim vaxtlar da olur. Hətta yaşadığım gərgin anlar da baş verir. Bu baxımdan futbol hisslərimi, duyğularımı, eləcə də, təhlillərimi, arqumentlərimi asanlıqla sətirlərə köçürməyə nail oluram. Və təbii ki, məncə, fikirlərimi də oxuculara tam çatdıra bilirəm.

***- Bir də necə oldu ki, silsilə yazılarınızı çap etmək üçün "Olimpiya dünyası" qəzetinə və "olimpnews.az" saytına təqdim etdiniz?***

- Futbolla bağlı yazılarımı yaradıcılığımda son vaxtların ən uğurlu məqalələrimdən hesab edirəm. O ki qaldı silsilə yazıların sizin qəzetinizdə çap olunmasına, baş redaktor Murad müəllimlə və "olimpnews.az" saytının rəhbərliyi ilə arabir görüşəndə idmanla bağlı, xüsusən futbolla əlaqədar diqqəti çəkən söhbətlərimiz olurdu. Günlərin birində o, dedi ki, fikirləriniz, mülahizələriniz, yaxın və uzaq keçmişlə bağlı açıqlamalarınız, bütövlükdə futbol dünyası və ulduzlarla bağlı qeydləriniz oxucular üçün çox maraqlı olar. Beləcə, ardıcıl yazılar qəzetinizin səhifələrində yer almağa başladı. Maraqlıdır ki, yazılarımdakı futbolla bağlı gizlənən, deyilməyən sirrlərin üzə çıxmasını oxucular, mütəxəssislər rəğbətlə qarşıladılar.

***- Artıq neçə ildir ki, bütün dünyanın futbol azarkeşləri əsasən iki yerə bölünüblər: Messi və Ronaldo azarkeşləri. Bir futbol azarkeşi və yazarı kimi, sizində fikrinizi öyrənmək istəyiriki, niyə onlar səviyyədə üçüncü namizəd yetişmir?***

- Əvvəlcə yada salmaq istərdim ki, Messi haqqında yazım "Olimpiya dünyası" qəzetində çap olunmuşdur. Əlbəttə, hər ikisi futbol əfsanəsidir. Anadangəlmə istedad baxımından hər ikisi əlçatmaz, möhtəşəmdirlər. Bu futbolçular artıq dahi futbolçu imicini qazanıblar. Belə futbolçular yetişmirlər, sadəcə doğulurlar. Amma onlar da yaşlaşırlar. Yaşla bağlı isə ildən-ilə çətinliklər baş qaldırır. Bu da təbii, normal prosesdir. Vaxt gələcək, onlar da gedəcək. Hələ ki, futbol dünyasının üfüqlərində onlara tay üçüncü namizəd görünmür. Ulduz futbolçular vardır.

İki il bundan əvvəl Dibala ortaya çıxanda çoxları düşündü ki, sizin dediyiniz üçüncü namizəd, deyəsən, yetişir. Amma təəssüf ki, sonradan Dibalanın oyununda eniş və sönüklük müşahidə olunmağa başladı. Ola bilər ki, bəlkə də bu müvəqqəti, keçici haldır. Çünki o, hələ çox gəncdir. Qalan namizədlərə gəlincə isə demək istərdim ki, Neymar, Harri Keyn, Salah, Qrizmann ulduz futbolçular kimi yetişsələr də, heç vaxt Messi, Ronaldo ola bilməyəcəklər. Ancaq düşünürəm ki, perspektivli gənc futbolçuların arasından yeni namizədlər yetişəcək. Belələri yenə futbola gələcəklər.

***- Pele, Puşkas, Eysebio, Banişevski, Maradona və digər keçmiş futbol əfsanələri bügünki dövrdə futbol oynasaydılar, onlar əvvəlki kimi futbol dahiləri ola bilərdilərmi?***

- Ümumiyyətlə, paralel, müqayisəli təhlilər aparılarkən hər bir sahə üzrə məsələlərə konkret dövrə, zamana uyğun qiymət vermək lazımdır. Adlarını çəkdiyiniz futbolçular artıq tarixdə iz qoyublar. Vaxtı ilə bu oyunçuları, necə deyərlər, ancaq yerə yıxmaqla dayandırırdılar. Onlar bu gün də oynasaydılar, yenə də, müdafiəçiləri çaş-baş salardılar. Qeyd etdiyiniz futbolçular bu gün də zirvədə olardılar. Bu gün də onlar oynasaydılar, öz "qızıl" dövrlərini yaşayardılar.

***- Sizi daha çox nə düşündürür: hakimin bilməyərəkdən çıxardığı səhv qərar, yoxsa bu qərardan sonra ruhdan düşən futbolçunun psixoloji gərginliyi?***

- Əslinə qalsa, hər bir halda hakimin bilməyərəkdən də verdiyi səhv qərarı, əgər oyunun nəticəsinə təsir edirsə, bir mənalı şəkildə ən azından futbolçuların psixoloji gərginliyinə səbəb olur. Həlledici, prinsipial görüşlərdə hakim səhvi daha ağrılı təsir bağışlayır. Psixoloji gərginliyini aradan qaldıra bilməyən futbolçuda ruh düşkünlüyü yaranır, içindəki ümid sönür, özünü toparlayıb, yenidən irəli atıla bilmir, qələbə ruhu sınır. Hakimin səhv qərarı onun əzmkarlığını "öldürür". Əzmkarlıq isə ən vacib keyfiyyətdir. Futbolçu oyuna canını, varlığını qoyur. Bir hakim səhvi isə hər şeyi alt-üst edir. Super, iddialı komandaların oyunlarındakı hakim səhvləri daha dözülməz olur və heç vaxt yaddan çıxmır. Avropa nəhənglərinin oyunlarındakı hakim səhvlərini təsəvvür edin və yaxud bir anlığa yadınıza salın. Məsələn, "Bavariya"-"Real" oyununda hakimin açıq-aşkar səhvləri almanlara baha başa gəldi. "Bavariya" kobud hakim səhvindən uğursuzluğa düçar oldu və növbəti mərhələyə "Real" çıxdı. İndi hakim səhvlərinin yaratdığı stress hisslərini də təsəvvür edin...

Bilməyərəkdən yaranan hakim səhvləri normal haldır. İdeal, tam, mükəmməl hakim ola bilməz. Hakim səhvi taleyin kəskin dönüşü də ola bilər. Necə deyərlər, belə hallarda bəxt komandadan üz döndərir. Başqa sözlə, gün uğurlu olmur, tale komandaya hakim səhvi ilə zərbə vurur. Ümumiyyətlə, hər bir halda mən hakim səhvindən yararlanan komandanın ədalətsiz qələbəsini qəbul edə bilmirəm.

***- Futbol yarandığı gündən təkmilləşir. Əgər imkanınız olsaydı, siz bu təkmilləşmədə hansı yenilikləri tətbiq edərdiniz?***

- Ümumiyyətlə, mütəxəssislər, nüfuzlu futbol xadimləri, hətta fantaziyalı azarkeşlər tərəfindən futbol qaydalarına əlavələr tez-tez irəli sürülür. Məsələn, mən "oyundan kənar" vəziyyətləri ləğv edərdim. Təsəvvür edin ki, bu yenilik tətbiq olunsa, təhlükəli vəziyyətlərin sayı çoxalar və eyni zamanda qolların vurulması perspektivi də artar. Fikrimcə, autdan topu ayaqla daxil etmək qaydası tətbiq olunsa, müdafiə olunan komandanın oyunçuları topu tez-tez, yerli-yersiz yan xətdən çıxarmazlar. Bununla da oyun dinamik xarakter alar. Hakimlə mübahisə edilməsini də qadağan edərdim. Belə ki, mübahisə hər bir halda futbolun imicinə neqativ təsir edir. Bundan başqa oyun sonrası penaltilər seriyasını ləğv edərdim... Belə... Məncə, kifayət edər hələlik..

***- Ölkəmizdə idmanın və Olimpiya Hərəkatının inkişafını ardıcıl olaraq izləyə bilirsinizmi?***

- Hələ orta məktəbdə oxuduğum illərdə SSRİ xalqlarının spartakiadasını ardıcıl olaraq diqqətlə izləyirdim. Azərbaycan idmançıları bir qayda olaraq güləş, sambo, yüngül atletika, voleybol, həndbol, su polosu, şahmat yarışlarında uğurlar qazanırdılar. O illərdə və sonrakı dövrlərdə də yay və qış Olimpiya oyunlarına da həvəslə baxırdım. SSRİ komandası əksər hallarda bu yarışların qalibi olurdu. Azərbaycan müstəqillik qazandıqdan sonra Yay Olimpiya Oyunlarında yaxşı göstəricilər əldə etməkdədir. Xüsusən, axırıncı iki olimpiadada medallarımızın sayı çox olmuşdur. İdmançılara yaradılan şəraitə, idman, olimpiya komplekslərinin sayına görə Azərbaycan dünya ölkələri sırasında ön qabaqcıl yerlərdən birini tutur. Azərbaycanda idmanın və Olimpiya Hərəkatının inkişafı hər cür tərifə layiqdir. Buna görə də əminliklə deyə bilərik ki, gələcəkdə də uğurlarımızın, medallarımızın sayı artmaqda davam edəcək.

***- Həyat bir futbol matçına bənzəyir. Biz isə həmin matçın iştirakçısıyıq. Bu oyunda, necə deyərlər, hakim Uca Yaradan, etdiyimiz səhvlərə görə verilən cəza isə bizə edilən xəbərdarlıqdır. Əgər sarı vərəqə göstərilibsə, nə üçün əksəriyyətimiz qırmızı vərəqənin təhlükəsini düşünmürük?***

- Bu dünyada heç kim, heç nədən sığortalanmayıb. İnsan həyatında daim nəsə yaxşıya və ya pisə yönələ bilər. Ona görə də gözlənilməz durumlara hazır olmalıdır insan. Ola bilməz ki, həmişə səhvsiz hərəkət edəsən. Yəni, müəyyən səhvlər qaçılmazdır. İnsan qəbahətlərə, yanlışlıqlara da yol verir. Hər kəsin əməlləri taleyində böyük rol oynayır. Səhvlər nəticəsində cəza hər hansı bir formada qarşımıza çıxırsa, bu, artıq Allahın, necə deyərlər, mesajıdır. Həyat burulğanları, ziddiyyətləri ilə çox dolaşıqdır, ona görə də taleyin zərbələri ilə rastlaşırıq. Bunlar hamısı siz dediyiniz kimi, bəlkə də, insanlara göstərilən sarı kartdır. Xəbərdarlığa məhəl qoymayan, qırmızı vərəqənin təhlükəsini düşünməyənlər isə Allah dərgahında bağışlanmayacaq böyük günahlara yol verməyə başlayırlar.

***-Bir var hüquq müstəvisində, bir də var həyatda olan mizan-tərəzi. Ədaləti qorumaq və ya ədalətli ömür sürmək, vicdanlı, mənəviyyatlı olmaq çoxmu çətindir?***

- Əslində mizan-tərəzinin fərqi yoxdur, istər hüquq müstəvisində olsun, istərsə də həyatda. Həyatda dürüst və ədalətli olmaq üçün mütləq vicdanın səsinə qulaq asmaq lazımdır. İnsanı düzgün istiqamətləndirən əsas amil vicdandır. Vicdan daxili təmizlənmə mexanizmidir. Onun səsinə qulaq asanlar həmişə doğru qərarlar verir, bataqlığa sürüklənmirlər.

***- Bəzən insanlar həyatın o biri üzünü, çarəsizliyi, faciələri də görməyə düçar olmaq ehtimalını unudurlar.***

- Belinskinin yaxşı bir sözü var: "İnsanın böyüklüyü onun öz vicdanı əleyhinə getməkdənsə, əzab çəkməyə üstünlük verməsindədir". Alman filosofu Kant isə deyib ki: "vicdan insana ana bətni daxilində verilir. Sonradan onu qazanmaq qeyri-mümkündür". Göründüyü kimi, burada əlbəttə, genetik kodun da böyük əhəmiyyəti vardır.

***- Uzun müddət - 38 ilə yaxın prokurorluq orqanlarında müxtəlif vəzifələrdə çalışmısınız. Sabirabad, Saatlı, Cəlilabad rayonlarının, Şirvan şəhər prokuroru olmusunuz. Çalışdığınız sahə yazıçılıqdan, jurnalistikadan uzaqdır. Bəs necə oldu ki, yazmaq qərarına gəldiniz?***

- Ədəbiyyat, incəsənət məni məktəb illərindən cəlb edib. Kino-teatrlarda filmlərə baxmağı çox sevirdim. O vaxtlar belə idi ki, uşaqlar kinoları müzakirə edərdilər. Sovet filmlərini daha çox göstərirdilər. Kinolara həvəsimi bilən atam "Sovetskiy ekran" jurnalını da alırdı. Ona görə də əksər kinolar haqqında əvvəlcədən məlumatım olurdu. Ümumiyyətlə, xeyli qəzet-jurnallara, kitablara abunə yazılan atam mənim düzgün tərbiyə almağım, əla qiymətlərlə oxumağım, inkişaf səviyyəmin durmadan artması, dünyagörüşüm, ətraf mühitdə baş verən hadisələrə bələd olmağım üçün əlindən gələni edirdi. Bir sözlə, belə demək mümkünsə, beynimin qayğısına qalmağı vacib bilərdi. Buna görə də uşaqlıqdan başlanan gözəl fantaziyalarım davam edirdi.

***-Beləliklə, yaradıcılığa başladınız...***

- Bəli, ağlımdan, ürəyimdən qəribə-qəribə istəklər gəlib keçirdi. Səkkizinci sinifdə oxuyarkən məhz bu hisslərin təsiri altında sərbəst mövzularda yazdığım yazılar məktəbin ədəbiyyat müəllimlərinin diqqətini cəlb etdi. Onlar bu yazıları onuncu sinif şagirdlərinə nümunə kimi göstərirdilər. Tezliklə mənim yazılar məktəbin divar qəzetlərində də öz yerini tapmağa başladı. Ümumiyyətlə, orta məktəb şagirdi bazasından qat-qat yuxarı səviyyəli inşa yazıları ilə ədəbiyyat müəllimlərini həmişə təəccübləndirirdim. Həmin illərdə "Azərbaycan-gəncləri" qəzetinin və Azərbaycan televiziyasının tarix və ədəbiyyat fənnləri üzrə keçirdiyi viktorinalarda və müsabiqələrdə iştirak etməklə qaliblər sırasında olardım. Hətta bir dəfə televiziyada tarix fənnindən məşğələlər aparan tanınmış alim Ziyəddin Göyüşov məni öz verilişinə də dəvət etmişdi.

***- Bəs əsl yaradıcılıq hissini nə vaxt duymağa başladınız?***

- Hələ gənclik illərindən hiss edirdim ki, içimdəki bir səs, qüvvə, həyatda müşahidə etdiklərim, daxili narahatçılıqlarım məni yazmağa sövq edir. Beləcə, məqalələrlə mətbuat səhifələrində çıxış etməyə başladım. İnsan müəyyən yaşlarda özünü daha yetkin sayır. Cavanlıqdan fərqli olaraq yaşın üstünə yaş gəldikcə insanı müdrik düşüncələr bürüyür, dünyanı daha dərindən dərk etməyə başlayırsan, dünyəvi duyğularla yaşayırsan. Elə məqamlar da gəlib çatır ki, düşüncələrini, fikirlərini oxucularla bölüşmək istəyirsən. Publisistikaya meyillik də belə yaranır.

***-Bir neçə kitabın müəllifisiniz. Deyirlər ki, bəzən müəllif öz yazılarında xarakterinə uyğun məqamlara daha çox yer ayırır. Bu fikirlə razısınızmı?***

- Qismən razıyam. Əslində bu, yaradıcılığın janrından da çox asılıdır. Belə də deyirlər ki, insanın taleyi də xarakterinə uyğun olur. Mən ömrüm boyu anladığım çərçivədə təmiz, dürüst, vicdanlı olmağa çalışmışam. Özünü tərif kimi çıxmasın, müəyyən biliklər bazası əldə etmiş, səylə, vicdanla, ləyaqətlə, qeyrətlə işləyib yaşamışam. Maarifçilik, mənəviyyat, çalışqanlıq, təkcə özünü düşünməmək, fədakarlıq özünü ziyalı hesab edən hər bir adam kimi mənim də alın yazım olub. Bütün bunları dostlarım, tanışlarım, yaxın ətrafım yaxşı bilir.

***- Demək, yaradıcılığınızda daxili aləminizin də müəyyən çalarları vardır.***

- Ulu Tanrı az, çox dərəcədə mənə yaradıcılıq qabiliyyəti də verib. Yaradıcı insan da gördüklərini duyur və yaşayır. Yəni, belə demək mümkünsə, bu yaşam ona necə çatırsa, elə həmin ölçüdə də bunları yaradır.

***-Bildiyimizə görə, Siz həm də yaxşı şahmat oynayırsınız. Hətta Qarabağ müharibəsinin qızğın vaxtında doğma Cəbrayıl rayonunda beynəlxalq şahmat turniri keçirməyə də nail olmusunuz. Bəlkə, bir qədər də şahmatdan danışaq..***

- Gənclik illərində müxtəlif şahmat turnirlərində iştirak etmişəm. Daha çox uğurlarım isə yazışma ilə keçirilən şahmat oyunlarında olub. "Komsomolskaya pravda" qəzetinin "Kaissa" kompüteri ilə keçirilən oyununda ən fəal iştirak edən oxucuların sırasında olmaqla mükafatlandırılmışam. Azərbaycanın tanınmış şahmatçısı Fikrət Sideyifzadə ilə "Bakı"- "Vaku"axşam qəzetlərinin oxucuları arasında keçirilən iki oyun da o vaxt böyük marağa səbəb olmuşdu (F.Sideyifzadə 1.5-0.5 hesabı ilə qələbə qazanmışdı). Həmin iki oyunda da fəal iştirak etmişdim. ABŞ-nın "Ankoric-tayms" qəzeti ilə "Komsomolskaya Pravda" qəzeti arasında yazışma ilə keçirilən oyun böyük maraq doğurmuşdu. SSRİ miqyasında çoxsaylı oxucular teleqram vasitəsilə gedişləri göndərirdilər. Amerikalı oxucular da gedişlərini Moskvaya-qəzetə bildirirdilər. Oyun həm də ona görə hədsiz maraq doğururdu ki, oxucular arasında seçilən üç ən fəal iştirakçı Alyaskaya gedəcəkdi. Mən SSRİ məkanında üç qalibdən biri oldum. O vaxtlar mətbuatda bu barədə çoxlu yazılar getdi. Hətta Azərbaycan televiziyasının "Dalğa" proqramına da məni dəvət etmişdilər. Cəbrayılda keçirilən beynəlxalq şahmat turniri də o dövrdə böyük əks-sədaya səbəb oldu. Təsəvvür edin ki, turnirə yarışların baş hakimi qismində beynəlxalq arbitr Krapil dəvət olunmuşdu. Yarışda Azərbaycan şahmatçıları ilə yanaşı keçmiş Yuqoslaviya, Türkiyə, İran, Gürcüstan, Sudan, Əfqanıstan, Tacikistan, eləcə də, Moskva və Sankt-Peterburqdan yüksək reytinqli şahmatçılar iştirtak edirdilər.

***- Siz özünüz də yarışda iştirak edirdinizmi?***

- Turnirin təşəbbüskarı və təşkilatçısı olmaqla yanaşı, mən də yarışa qatılmışdım. Azərbaycan Televiziyasının "Xəbərlər" proqramı gündəlik olaraq yarışın gedişi barədə məlumat verirdi. Respublikada bütün qəzetlərdə turnirlə bağlı yazılar gedirdi. Hətta yarışın nəticəsi barədə "Komsomolskaya pravda", "Sovetskiy sport", eləcə də bütün mərkəzi şahmat jurnalları məlumat yaydı. Onu da bildirmək istəyirəm ki, bu beynəlxalq şahmat turniri ilə bağlı yaxın vaxtlarda ayrıca kitab nəşr etdirməyi nəzərdə tutmuşam. Bu gün də şahmatı sevirəm və mənim hobbim olaraq qalır.

***- Sonda nə demək istərdiniz?***

- Hərdən düşünürəm ki, kaş yatmaq olmaydı. Hər şeyə vaxt çatdıra biləydim. İndi də məni çox şey maraqlandırır. Çox şeydə özümü yoxlamaq istərdim. Dil öyrənmək, ədəbiyyata, yaradıcılığa, idmana vaxt ayırmaq, yarımçıq işlərimi başa çatdırmaq, hüquqi mövzularda olan əlyazmalarımı bitirmək, hazır olan əsərlərimi çap etdirmək, çoxlu-çoxlu kinolara baxmaq, səyahət etmək, şahmat turnirlərinə getmək, imkan daxilində hamıya kömək etmək....Nəhayət, sonda deyəcəyim bir fikir də var: Zəiflərin içində seçilməyə nə var ki.... Çalışıram güclülərin arasında seçilim!

***Səadət Hakıyeva,***
***Anar Əhmədov***

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU**

*"Uşaq və gənclərin fiziki və mənəvi inkişafı"*

# Sağlam düşüncəyə malik gənc nəsil yetişir

Qəbələ Azərbaycanın dilbər guşələrindən biri olmaqla bərabər, həm də turizm mərkəzidir. Bakıdan 225 km məsafədə yerləşən rayonun gözəl, füsunkar təbiəti, taixi abidələri, yüksək səviyyəli turizm infrastrukturu, nəinki isti yay fəslində, hətta soyuq qış aylarında da, turistlərin diqqətini cəlb edir. Hazırda Qəbələdə təqribən 100-ə yaxın turizm-istirahət obyekti fəaliyyət göstərir. Qəbələnin son illər mühüm əhəmiyyətli beynəlxalq tədbirlərin məkanına çevrilməsi bura turist axınını daha da artırıb. "Tufandağ" Qış-Yay İstirahət Kompleksi, Stend və Ox Atıcılığı Mərkəzi, "Qəbələlənd" İstirahət və Əyləncə Mərkəzi yerli və xarici turistlərin sevdiyi məkanlardır.

Respublikanın ən yüksək zirvəsi, hündürlüyü 4466 metr olan Bazardüzü Qəbələdə yerləşir. Burada Dəmirapançay, Türyançay və onların qolları, Tikanlıçay, Bum çay, Vəndam çay, Mucux, Yeddi gözəl və s. şəlalələri vardır. 60 min hektar sahə meşə ilə örtülüdür. Çüxur Qəbələ kəndindəki qədim Qəbələ şəhərinin qalıqları, rayonun müxtəlif yerlərindəki daş kurqanlar (e.ə.III-I illik), Həzrə kəndindəki türbələr kompleksi (XIV-XV əsrlər), Nic qəsəbəsindəki Nekrapol (antik dövr) və s. abidələrlə zəngindir.

Turizm, gözəl təbiət öz yerində, "Olimpiya dünyası" qəzetini Qəbələyə aparan səbəb isə rayonun idman həyatı ilə yaxından maraqlanmaq idi. Rayonda insanların asudə vaxtınının təşkili, gələcəyimiz olan uşaq, yeniyetmə və gənclərin idmana cəlb olunması istiqamətində aparılan işlərlə tanış olmaq üçün Qəbələ Rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Sultanovla görüşdük. Fəxri Sultanov gənc kadr olmasına baxmayaraq, öz işini bilən, vəzifəsinin öhdəsindən məsuliyyətlə gələn bilən mütəxəxssislərdəndir.

## "Həyat və enerji dolu gənclərlə işləmək insanı yorulmağa qoymur"

***- Fəxri müəllim, sizi idman sahəsinə bağlayan nə oldu?***

- Mən 1977-ci ildə Qəbələ şəhərində anadan olmuşam. 1984-1994-cü illərdə Qəbələ şəhər 1 saylı orta məktəbini əla qiymətlərlə bitirmişəm. Orta məktəbi bitirdikdən sonra sənədlərimi Azərbaycan İnşaat Mühəndisləri İnstitutuna (red.-indiki İnşaat Universiteti) vermişəm. 1998-ci ildə həmin ali təhsil ocağının inşaat mühəndisi fakültəsini bitirmişəm. Ordu sıralarında hərbi xidmətimi başa vurduqdan sonra Yeni Azərbaycan Partiyasının üzvü kimi Qəbələ rayon İcra Hakimiyyətində təlimatçı kimi fəaliyyətə başlamışam. 2003-cü ildə Qəbələ rayon İcra Hakimiyyətində "Yetkinlik yaşına çatmayan yeniyetmələrin işi üzrə" katib vəzifəsinə təyin olunmuşam. Sonra bir müddət rayon icra başçısının köməkçisi kimi işləmişəm. 2009-cu ildən Qəbələ rayon Gənclər və İdman İdarəsinin rəisi vəzifəsində çalışıram. Uşaqlıqdan idman sahəsinə marağım var idi. Gənclər və idman sahəsində işləməyim məni ikinci ali təhsil almağa da yönləndirdi. 2016-cı ildə Azərbaycan Dövlət İdman və Bədən Tərbiyəsi Akademiyasının məzunu oldum.

***- Gənc yaşda rayon gənclərinin taleyini sizə tapşırdılar. Çətin deyildi?***

- Asan iş yoxdur. Hər bir işin çətinliyi var və təbii ki, yeni işə başlamaq asan deyildi. Düzünü deyim ki, bu vəzifəyə təyin olunanda içimdə bir narahatlıq var idi - "görəsən, öhdəsindən gələ biləcəyəmmi?" Çünki özüm gənc kadr olduğum halda mənə məsuliyyətli vəzifə etibar edilmişdi. Mən tərəddüdü, həyəcanı bir yana atıb həvəslə işə başladım. Hansı işdə və ya vəzifədə çalışırsansa çalış, əsas odur ki, öz işini sevəsən və məsuliyyətlə yanaşasan. Məsuliyyət, zəhmətsevərlik olanda çətinliklərin öhdəsindən gəlmək çətin olmur. Ümumiyyətlə, həyat və enerji dolu gənclərlə, idmançılarla işləmək insanı yorulmağa qoymur, yaşamağa həvəsləndirir. Gənclərlə işləmək çox maraqlıdır.

***- Qəbələdə gənclər və idman sahəsində işlər necə aparılır?***

- Qəbələ rayon Gənclər və İdman İdarəsi Gənclər və İdman Nazirliyi, Qəbələ rayon İcra Hakimiyyəti tərəfindən təsdiq olunan tədbirlər planı əsasında öz işini günün tələbləri səviyyəsində qurmağa çalışır. Rayonumuzda gənclər və idman sahəsində hərtərəfli



işlər aparılır. Keçirilən tədbirlərin mahiyyət baxımından əhəmiyyəti dövlətin gənclər siyasətinin düzgün istiqamətdə aparılmasını özündə əks etdirir. Gənclərin hüquqlarının müdafiə edilməsi, onlar arasında cinayətkarlıq hallarını törədən səbəblərin aradan qaldırılması, istedadlı gənclərin üzə çıxarılması, uşaq və gənclərin zərərli vərdişlərdən uzaqlaşdırılması üçün idmana cəlb edilməsi istiqamətində mühüm tədbirlər həyata keçiririk. Uşaq və gənclərimizin mili mənəvi dəyərlər və vətənpərvərlik ruhunda tərbiyə edilməsi, onlarda vətənə, torpağa sevgi, böyüklərə hörmət, kiçiklərə məhəbbət hisslərinin aşılanması məsələləri mühüm vəzifələrimizdəndir.

Təkcə onu demək kifayətdir ki, 2018-ci ilin birinci yarım ili ərzində idarəmiz tərəfindən 42 tədbir reallaşdırılıb. Bunlardan 25-i gənclər, 17-si isə kütləvi bədən tərbiyəsi və idman sahəsini əhatə edib. Qəbələ Rayon Gənclər və İdman İdarəsi üçün rayonda uşaq və gənclərin asudə vaxtının səmərəli təşkili, onların zərərli vərdişlərdən uzaqlaşaraq idmana cəlb edilməsi, eləcə də, dərəcəli idmançıların hazırlanaraq respublika və beynəlxalq səviyyəli yarışlarda iştirakının təmin edilməsi vacib əhəmiyyətli məsələlərdəndir.

Rayonumuzda hər il fevral ayında "2 Fevral -Gənclər Günü" xüsusi təntənə ilə qeyd olunur. Bu il belə tədbirimiz Heydər Əliyev Mərkəzində keçirildi. Tədbirdə rayonun ictimai-siyasi həyatında fəal iştirak edən gənclərdən, onların uğurlarından danışıldı. Bildirildi ki, müstəqil dövlətimizin daha da çiçəklənməsi üçün sağlam düşüncəyə malik istedadlı gənc nəsil yetişməkdədir. Tədbirin sonunda müxtəli sahələr üzrə nailiyyət qazanan, rayonun ictimai-siyasi həyatında fəal iştirak edən bir qrup gənc fəxri fərman və xatirə hədiyyələri ilə mükafatlandırıldı.

## "Xocalı faciəsi bizim qan yaddaşımızdır"

***- Rayonda gənc nəslin vətənpərvərlik tərbiyəsi istiqamətində hansı işlər görülür?***

- Uşaq və gənclərin vətənvərvərlik tərbiyəsi istiqamətində tədbirlər proqramına əsasən müəyyən işlər görülür. Rayonun təhsil, səfərbərlik və hərbi xidmətə çağırış üzrə şöbələri bu mühüm məsələ ilə bağlı əlbir fəaliyyət göstərir və müxtəlif səpkili tədbirlər, yarışlar təşkil edir. Uşaq və gənclərin vətənpərvərlik tərbiyəsi mövzüsunda "Şahin" və "Sərhəd" hərbi idman oyunlarını, yanğınsöndürənlərin yarışlarını, "Vətənin müdafiəsinə hazıram" adlı çoxnövçülük yarışlarını misal göstərə bilərəm. Bir faktı deyim ki, orta məktəblərdə keçirilən hərbi dərslərdə fənn müəllimləri ləvazimatın çatışmamasından əziyyət çəkirlər və bu müəyyən problemlər yaradır. Müharibə şəraitində yaşadığımızı nəzərə alsaq, belə hallar yolverilməzdir.

Bundan başqa, vətənpərvərliklə bağlı rayonun orta ümumtəhsil məktəbləri arasında "Şəhidlik ölməzlikdir" mövzusunda inşa yazı müsabiqələri keçirilir. Bu müsabiqələrdə uşaq, yeniyetmə və gənclər fəal iştirak edirlər. Yanvar ayında 20 Yanvar faciəsinin 28-ci ildönümü ilə bağlı Qəbələ Mədəniyyət Mərkəzində mərkəzləşdirilmiş kitabxana sistemi ilə rəsm qalareyasının birlikdə tədbiri keçirilib. Tədbirdə, əvvəlcə, 20 Yanvar və Qarabağ müharibəsi şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Çıxış edənlər Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş 20 Yanvar faciəsini törədən səbəblərdən, vətənin azadlığı uğrunda canını qurban verən şəhidlərimizdən söhbət açıblar.

Qəbələ rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə şəhər 1 saylı orta məktəbdə faciənin ildönümü ilə bağlı "Şəhidlər unudulmur" mövzusunda şeir müsabiqəsi təşkil edilib. Müsabiqənin keçirilməsində məqsəd qan yaddaşımıza həkk olan bu faciənin qurbanlarının xatirəsinin əziz tutulduğunu ictimaiyyətə çatdırmaq, uşaq və gənclərin bədii yaradıcılığa həvəsləndirməkdən ibarətdir. Müsabiqədə rayonun müxtəlif məktəblərindən 20-dən artıq şagird iştirak edib.

Xocalı faciəsi bizim qan yaddaşımızdır, erməni terrorizminin xalqımıza qarşı törətdiyi vəhşiliyin son həddidir. Bu tarixi unutsaq, şəhidlərimizin ruhu bizi bağışlamaz. Bu il Xocalı soyqırımının 26-cı ildönümü ilə əlaqədar Qəbələ Mədəniyyət Mərkəzində "Xocalı uşaqların gözü ilə" mövzusunda rəsm sərgi müsabiqəsi təşkil olunub. Rayon Gənclər və İdman İdarəsinin, dövlət rəsm qalareyasının və incəsənət məktəbinin birgə təşəbbüsü ilə keçirilən sərgidə 60-dək həvəskar rəssam iştirak edib. Ən maraqlı rəsm əsərlərinin müəllifi Nərgiz İsaxarova 1-ci yerə layiq görülüb. Mükafatalayiq yerləri tutan şagirdlərə fəxri fərman və xatirə hədiyyələri təqdim edilib.

## "250-yə yaxın uşaq futbolla məşğul olur"

***- Qəbələdə ən çox sevilən idman növü hansıdır?***

- Futbol populyar idman növü kimi hər yerdə sevilir. Qəbələdə də futbolu çox sevirlər. Təsadüfi deyil ki, futbol üzrə "Qəbələ" Peşəkar Futbol Klubu (PFK) Azərbaycan çempionatının nüfuzlu komandalarından biridir. Klubumuz 10 ildən artıqdır ki, Azərbaycan Premyer Liqasında iştirak edir və uğurları ilə pərəstişkarlarını sevindirir. Klubun nəzdində uşaq futbol akademiyası da fəaliyyət göstərir. Həmin akademiyada 250-yə yaxın uşaq futbolla məşğul olur. Bu uşaqların içərisindən istedadlılar seçilir və peşəkar klublara və divizionlara cəlb edilirlər. Bu da təbii ki,









nəinki Qəbələdə, ümumiyyətlə ölkəmizdə futbolun inkişagfına yol açır.

***- İdman sahəsində hansı uğurlarınız və nailiyyətləriniz vardır?***

- Rayonumuzda idmana, bədən tərbiyəsinə böyük maraq vardır. Ölkə rəhbərinin Sərəncamı və təşəbbüsü əsasında inşa edilən Olimpiya İdman Kompleksində idmançıların məşq etmələri üçün hər bir şərait yaradılıb. İkimərtəbəli kompleksdə idman zalı, üzgüçülük hovuzu, trenajor zalı, yeməkxana, məşq zalı və kotteclər fəaliyyət göstərir. Müasir standartlar səviyyəsində inşa edilən kompleksdə idmanın mini futbol, basketbol, voleybol, gimnastika, boks, güləş növləri üzrə beynəlxalq səviyyəli turnirlərin təşkili üçün əlverişli şərait və imkan yaradılıb. Qəbələ Olimpiya İdman Kompleksinə təcrübəli mütəxəssis Ceyhun Allahverdiyev rəhbərlik edir.

Statistikaya görə, Qəbələ rayonunda müntəzəm idmanla məşğul olan gənclərin sayı 2136 nəfər təşkil edir ki, bu da gənclərin 6,9 faizi qədərdir. Bunların arasında idman dərəcəsi olanların sayı isə 257 (12 faiz) nəfərdir. İdmançı gənclərdən 12-si respublika və beynəlxalq səviyyəli yarışlarda qalib gələnlərdir. Uşaq və gənclərimiz boş vaxtlarında idmanla məşğul olur, sağlamlıqlarını möhkəmləndirirlər. Rayonda sərbəst güləş, boks, cüdo, taekvondo, voleybol, futbol, stolüstü tennis və digər idman növləri inkişaf etdirilir. Yüzlərlə uşaq və gənc təcrübəli məşqçilərin rəhbərliyi altında idmanın müxtəlif növlərinin sirlərinə yiyələnir. Bununla onlar zərərli vərdişlərdən uzaqlaşaraq sağlam həyat tərzini seçirlər.

Qəbələdə ümummilli lider, müstəqil və müasir Azərbaycanın qurucusu Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ilə əlaqədar bir sıra mühüm idman tədbirləri keçirilib. Bu tədbirlərdən biri də gənclər arasında sərbəst güləş üzrə rayon birinciliyidir. Qəbələ Olimpiya İdman Kompleksində keçirilən yarışlarda Qəbələ, Mingəçevir, Ağdaş, Göyçay və Ucar rayonlarından olan 100-dən artıq idmançı medallar uğrunda yarışıb. Yarışda iki yaş qrupunda 16 çəki dərəcəsi üzrə üzrə 100-dən çox yeniyetmə qüvvəsini sınayıb. Yarışın qalibləri gənclər və idarəsinin fəxri fərman, medal və diplomları ilə mükafatlandırılıblar.

Qəbələ rayonunda gənc nəslin fəallığını, fiziki və mənəvi sağlamlığını artırmaq məqsədilə müxtəlif mövzularda viktorinalar, müsabiqələr, sərgilər, intellekt oyunlar, yarışlar təşkil edirik. İfaçılıq müsabiqəsi qabiliyyəti olan uşaq və gənclərin üzə çıxarılmasında əhəmiyyətli rol oynayır. Rəsm müsabiqələrinin qalibləri respublika səviyyəsində müsabiqələrdə iştirak etmək hüququ əldə edirlər. İnşa yazı müsabiqələrində fərqlənənlər respublika olimpiadalarında iştirak edirlər.

Fərəhli haldır ki, Qəbələnin yetirməsi, Nicat Apayev adına Qəbələ şəhər 4 saylı məktəbin üçüncü sinif şagirdi İsgəndər İsgəndərli ulu öndər Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü ilə bağlı keçirilən Respublika Şahmat Olimpiadasını uğurla başa vuraraq, qalib adına layiq görülüb. Bu uğur onun gələcəkdə yaxşı şahmatçı olacağından xəbər verir.

Rayonun ümumtəhsil məktəblərinin 12 nəfər şagirdi Bakı çəhərində keçirilən respublika üzrə fənn olimpiadasının final mərhələsində uğurla iştirak edib. Onlardan 6 nəfəri müxtəlif fənnlər üzrə yüksək nəticə qazanaraq olimpiadanın qalibi olub. Şəhər 3 saylı tam orta məktəbin XI sinif şagirdi Gülsüm Quliyeva (Azərbaycan dili), Mıxlıqovaq kənd məktəbinin şagirdi Röyal İsmayılov (coğrafiya), Həmzəli kənd X sinif şagirdi Turac Tahirova (coğrafiya) olimpiadanın gümüş medalına layiq görülüblər. Yeri gəlmişkən, həmin orta məktəbdə idarəmizin təşkilatçılığı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr edilmiş bilik yarışının finalı təşkil edilib. Bilik yarışında tam orta məktəblərin IX-XI sinif şagirdləri komanda şəklində iştirak ediblər. Şagirdlər dil-ədəbiyyat, tarix, riyaziyyat, həndəsə, coğrafiya, biologiya, kimya fənnləri üzrə biliklərini yoxlayıblar. Toplanmış xalların nəticəsinə görə, Qəbələ şəhər 3 saylı məktəbin komandası bütün rəqiblərindən üstün olub. Şəhər 2 saylı tam orta məktəbi 2-ci, Zarağan kənd 1 saylı orta məktəb isə 3-cü olub.

***- Tanınmış idmançılardan kimlərin adlarını çəkə bilərsiniz?***

- Son illərdə idman sahəsində mühüm nailiyyətlərimiz olub. Belə ki, təmsilçimiz Aydan Hüseynzadə bu il şahmat üzrə beynəlxalq yarışın qalibi adına layiq görülüb. Usta normasını yerinə yetirən idmançımız şahmat məsələlərinin əyani həlli üzrə 14-cü beynəlxalq yarışda 3-cü, 30-cu Azərbaycan çempionatında isə 2-ci yeri tutub. Digər idmançımız, şahmat üzrə dəfələrlə Azərbaycan çempionu, beynəlxalq yarışların qalibi Araz Alməmmədov isə 30-cu Azərbaycan çempionatının bürünc medalın qazanıb. Qəbələ öz idmançıları ilə fəxr edir. Tanınmış idmançılarımızdan güləş üzrə dünya çempionu Ruhin Mikayılovun adını çəkə bilərəm. Bundan başqa, həmyerlimiz Cavid Çələbiyev boks üzrə dünya çempionu, IV İslam Həmrəyliyi Oyunlarının qızıl mükafatçısıdır. Qarışıq döyüş növləri (MMA) üzrə Fuad Musayev də kifayət qədər tanınmış idmançılarımızdandır. O, yerli və beynəlxalq səviyyəli yarışlarda "Qəbələ" klubunu təmsil edir.

Yeniyetmə idmançılarımız da kifayət qədərdir. Taekvondoçularımız Cavid Əzizov və Əhmədiyyə Cəfərov gənclər arasında ölkə birinciliyində bürünc medala sahib olublar. Əhmədiyyə Cəfərov yeniyetmələr və gənclər arasında Göygöl Açıq birinciliyində 2-ci yeri tutub. Cavid Əzizov isə bu yarıda 3-cü olub. Sənan Şükürov bu il qol güləşi üzrə X Azərbaycan çemionatında uğurla çıxış edərək fəxri kürsünün ən yüksək pilləsində qərar tutub.

Karateçimiz Hilal Xurşudov isə XXI ölkə çempionatının gümüş medalına layiq görülüb. Bundan başqa, Cavid Bəkirli kompüter oyunları üzrə XII Azərbaycan çempionatının zona mərhələsində qızıl medala layiq görülüb.

***- Rayon komandanızın uğurları barədə nə deyə bilərsiniz?***

- Fərdi şəkildə olduğu kimi, rayon komandamız da uğurları ilə fərqlənir. Belə ki, Qəbələ komandası bu il "Xəmsə" milli intellektual oyunlar üzrə gənclər arasında keçirilən X Azərbaycan çempionatının qalibi olub. Eyni zamanda "Vətənin müdafiəsinə hazıram" poliatlon çoxnövçülüyü üzrə təşkil edilən respublika çempionatının zona yarışında bütün rəqiblərini üstələyərək birinci olub.

***- Qəbələ bu il hansı mühüm beynəlxalq yarışa ev sahibliyi etdi?***

- Qəbələ idman yarışlarının mərkəzinə çevrilib. Rayonumuz növbəti beynəlxalq idman tədbirinə mayın 8-dən 12-dək ev sahibliyi etdi. Heydər Əliyevin anadan olmasının 95 illik yubileyinə həsr olunmuş stend atıcılığı üzrə IV Beynəlxalq Qran-pri yarışları Qəbələ Stend və Ox Atıcılığı üzrə Kompleksində təşkil edilmişdi. Yarışlarda Azərbaycan olmaqla, Türkiyə, Gürcüstan, Ukrayna, Özbəkistan, Rusiya, İran, Birləşmiş Ərəb Əmirlikləri və Bəhreyndən iştirak edən 70 idmançı 6 dəst medal uğrunda mübarizə apardı. İştirakçılar arasında Olimpiya, dünya və Avropa çempionları da var idi.

Azərbaycan komandası Qran-pri yarışlarını 10 (2 qızıl, 5 gümüş və 3 bürünc) medalla başa vurdu.

Yuxarıda söylənilərdən belə nəticəyə gəlirik ki, Azərbaycanın dilbər guşələrindən olan Qəbələdə idmana maraq böyükdür və bu sahənin inkişafı daim diqqət mərkəzindədir. Uşaq və gənclərin fiziki və mənəvi inkişafı istiqamətində rayonda hərtərəfli və mühüm işlər görülür. Bu da birmənalı olaraq regionlarda sağlam düşüncəli, fiziki cəhətdən möhkəm, vətənpərvər gənc nəslin yetişməsinə yol açır.

***Səadət Hakıyeva***

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə çap edilir.*

# Sentyabr

## Ayın yekunu Olimpiya dünyası nın təqdimatında

### Cüdo

Bolqarıstanın paytaxtı Sofiyada cüdo üzrə gənclər arasında Avropa birinciliyi keçirilib. 42 ölkədən 405 (217 kişi, 188 qadın) cüdoçunun qüvvəsini sınadığı yarışda Azərbaycan millisi 14 (10 kişi, 4 qadın) idmançı ilə təmsil olunub. Cüdoçularımızdan ən yaxşı nəticəni Tofiq Məmmədov (60 kq) göstərib. O, bütün rəqiblərinə qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. 55 kq çəki dərəcəsində çıxış edən Rövşən Əliyev birinciliyin gümüş medalına sahib çıxıb. Şəfəq Həmidova (44 kq), Balabəy Ağayev (55 kq), Murad Fətiyev (81 kq) və Adil Kərimli isə (100 kq) qitə birinciliyinin bürünc medalına sahib olublar.

* * *

Sentyabrın 20-27-də Bakıda Milli Gimnastika Arenasında cüdo üzrə dünya çempionatı keçirilib. Yarışda 125 ölkədən 758 (460 kişi, 298 qadın) idmançı mübarizə aparıb. Çempionatda komandamızın üzvlərindən Uşangi Kokauri (+100 kq) gümüş, Hidayət Heydərov (73 kq) bürünc medal qazanıb. Bundan başqa, Kəramət Hüseynov (60 kq) 5-ci, İrina Kindzeska (+78 kq) 7-ci yeri tutub. Azərbaycan millisi bu nəticə ilə cüdo üzrə dünya çempionatında fərdi yarışları 11-ci pillədə başa vurub. Yığmamız kişilərin mübarizəsində 6-cı, qadınların yarışında isə 24-cü yerlə kifayətlənib.

Çempionatın sonuncu günündə isə qarışıq komanda yarışları keçirilib. 18 yığmanın mübarizə apardığı bu yarışlarda Azərbaycan millisinin heyətində 11 cüdoçu yer alıb. Millimiz ilk görüşdə Avstriya yığmasına 4:1 hesabı ilə qalib gəlsə də, 1/4 finalda Yaponiya komandasına məğlub olub - 2:4. Təsəlliverici görüşdə Hollandiya komandasını 4:2 hesabı ilə üstələyən cüdoçularımız bürünc medal uğrunda mübarizədə Rusiya millisinə 1:4 hesabı ilə məğlub olaraq çempionatı beşinci pillədə başa vurublar.

### Gimnastika

Bolqarıstanın Varna şəhərində bədii gimnastika üzrə beynəlxalq turnir keçirilib. 15 ölkədən 200-ə yaxın gimnastın iştirakı ilə keçirilən yarışda komandamız uğurla çıxış edib. Belə ki, fərdi proqramda mübarizə aparan gənc gimnastımız Yelizaveta Luzan lent ilə hərəkətlərə görə, hakimlərdən 13.900 xal alaraq fəxri kürsünün 3-cü pilləsinə yüksəlib. Gimnastımız çoxnövçülükdə 4-cü, halqa, top və gürzlərlə çıxışlarına görə isə 6-cı olub. Yığmamızın digər fərdi gimnastı Məryəm Səfərova isə çoxnövçülükdə 9-cu yerdə qərarlaşıb.

* * *

Rusiyanın Velikiy Novqorod şəhərində ənənəvi "Zolotov Cup" adlı beynəlxalq turnir keçirilib. Ölkəmizi bu yarışda iki kişi cütlüyü - Seymur Cəfərov və Murad Əkpərov, Daniel Abbasov və Murad Rəfiyev, həmçinin qarışıq cütlüyümüz Abdulla Əl - Məşayxi və Ruhidil Qurbanlı təmsil ediblər. Gimnastlarımız turnirdə uğurlu çıxışları ilə yadda qalıblar. Belə ki, Daniel və Murad cütlüyü 12-18 yaş kateqoriyasında 81.750 xalla yarışın gümüş medalını qazanıblar. Komanda yoldaşlarından geri qalmayan qarışıq cütlüyümüz Abdulla və Ruhidil isə 72.590 xalla bürünc medala sahibləniblər.

Seymur və Murad cütlüyü isə medalın bir addımlığında qərarlaşıblar.

* * *

Polşanın Katoviç şəhərində bədii gimnastika üzrə IX Beynəlxalq "Qızıl gürz-2018"" kuboku uğrunda yarış keçirilib. Polşa, Macarıstan, Ukrayna, Çexiya və Belarusun müxtəlif şəhərlərindən 18 klubun mübarizə apardığı turnirdə ölkəmizi səkkiz yaşlı həmyerlimiz Mina Abbasova təmsil edib. O, çoxnövçülük yarışlarında fəxri kürsünün ən yüksək pilləsinə qalxaraq qızıl medala layiq görülüb. Həmyerlimiz alətsiz hərəkətlərdə birinci, halqa ilə hərəkətlərdə isə ikinci pillədə qərarlaşıb. Beləliklə, Mina Abbasova bu gərgin mübarizədə üç medal (iki qızıl və bir gümüş) qazanmağa müvəffəq olub.

* * *

Bolqarıstanın paytaxtı Sofiyada bədii gimnastika üzrə dünya çempionatı keçirilib.

Siyana Vasileva, Aliyə Paşayeva, Ayşən Bayramova, Diana Doman və Zeynəb Hümmətovanın daxil olduğu Azərbaycan yığması çempionatın iki finalında iştirak edib. Qızlarımız, əvvəlcə, beş halqa ilə kompozisiyanı icra edərək 20.100 xalla beşinci yeri tutublar.

Sonra Azərbaycan yığması üç top və iki ip ilə hərəkət nümayiş etdirərək 20.400 xal toplayıb. Gimnastlarımız bu növdə yeddinci yeri tutublar. Komandamız çoxnövçülük proqramında da sıralamada 7-ci yerdə qərarlaşıb.

### Güləş

İranın Arak şəhərində yeniyetmə sərbəst güləşçilər arasında "Yadigar İmam Cup" beynəlxalq turniri keçirilib. 9 komandanın iki qrupda mübarizə apardığı yarışda məşqçilər Vahid Məmmədov və Abil İbrahimovun rəhbərliyi altında 12 idmançıdan ibarət kollektiv ölkəmizi təmsil edib. Millimiz qrupda Rusiyaya (2:8) uduzsa da, İraq (10:0) və İran-3 (8:2) komandalarına qalib gəlib və ikinci yeri tutub. Komandamız İran-2-ni (7:3) də məğlub edərək xatirə turnirinin bürünc medalını qazanıb.

* * *

İranın Sircan şəhərində yeniyetmə yunan-Roma güləşçiləri arasında "Yadigar İmam Cup" beynəlxalq turniri keçirilib.

Komanda yarışında yeniyetmələrdən ibarət yığmamızın məşqçiləri Nazim Əhmədov və Rasim Ağayevin rəhbərliyi altında 12 pəhləvanımız gücünü sınayıb. Qrupda keçirdiyi bütün görüşləri qələbə ilə başa vuran millimiz finalda İrana uduzub və gümüş medala kifayətlənib.

* * *

Rusiyanın Yakutsk şəhərində Dmitri Korkinin xatirəsinə həsr olunmuş sərbəst güləş üzrə beynəlxalq turnir keçirilib. Yarışda məşqçi Əşrəf Əliyevin rəhbərliyi altında ölkəmizi 7 güləşçi təmsil edib.

Əhmədnəbi Qvarzatilov (61 kq) və Nurməhəmməd Hacıyev (97 kq) qızıl medala layiq görülüblər. Komandamızın digər üzvü Pərviz İbrahimov (57 kq) gümüş medala sahib çıxıb. Hacımurad Ömərov (74 kq) və İbrahim Yusubov (79 kq) isə bürünc medalla kifayətləniblər.

* * *

Polşanın paytaxtı Varşavada güləş üzrə "Qran-Pri" seriyasından olan "Poland Open" turniri keçirilib. Yarışda ölkəmizi təmsil edən qadınlardan ibarət yığmamızın lideri Mariya Stadnik (50 kq) həlledici görüşdə ötən il Avropa çempionatının finalında məğlub etdiyi (10:0) Ukrayna idmançısı İlyona Semkivlə qarşılaşıb. Finaladək bütün görüşlərdə asan qələbə qazanan M.Stadnik sonuncu qarşılaşmada da rəqibinə qalib gəlib - 13:2.

* * *

Belarusun paytaxtı Minskdə yunan-Roma güləşi üzrə Oleq Karavaevin xatirəsinə həsr olunmuş beynəlxalq turnir keçirilib. Komandamız yarışda yığmanın baş məşqçisi Şaban Donat və məşqçi Rövşən Bayramovun rəhbərliyi altında 8 güləşçi ilə təmsil olunub. Pəhləvanlarımızdan Murad Məmmədov (60 kq) və Taleh Məmmədov (63 kq) qızıl medala sahib çıxıb. Finalda macarıstanlı Viktor Lorintsə məğlub olan İslam Abbasov (87 kq) gümüş medalla kifayətlənib. Komandamızın digər üzvü Rafiq Hüseynov (82 kq) isə turniri bürünc medalla başa vurub.

* * *

Belarusun paytaxtı Minskdə üçqat Olimpiya çempionu Aleksandr Medvedin şərəfinə keçirilən beynəlxalq turnirdə sərbəst güləş üzrə yığmamız komanda hesabında 3-cü yeri tutub. Baş məşqçi Firdovsi Umudov, məşqçilər Zəlimxan Hüseynovla Arif Abdullayevin rəhbərliyi altında Şərif Şərifov (92 kq) və Cəmaləddin Məhəmmədov (125 kq) qızıl, Hacı Əliyev (65 kq), Ağahüseyn Mustafayev (70 kq) və Murad Süleymanov (86 kq) gümüş, Murtuzəli Müslimov (70 kq) isə bürünc medal qazanıblar. Millimiz bu nəticələrlə 126 xal toplayıb və 3-cü yeri tutub.

Qadınlardan ibarət yığmamız isə komanda hesabında 4-cü pillədə qərarlaşıb. Baş məşqçi Aslan Ağayev və məşqçi Rövşən Umudovun rəhbərliyi altında Anjela Doroqan (53 kq), Tatyana Omelçenko (59 kq) gümüş, Elmira Qəmbərova (62 kq), İrina Netreba (65 kq) və Səbirə Əliyeva (76 kq) isə bürünc medal əldə ediblər. Yekunda yığmamız 93 xal toplayıb.

* * *

Slovakiyanın Trnava şəhərində gənc güləşçilər arasında dünya çempionatı keçirilib. Yunan-Roma güləşçilərinin yarışında Nəzərşah Fətullayev (87 kq) dünya çempionatında üçüncü yeri tutub. Sərxan Məmmədov (130 kq) isə təsəlliverici görüşdə uduzub.

Yarışda uğurla mübarizə aparan sərbəst güləş üzrə yığmamız isə 91 xal toplayaraq komanda hesabında 4-cü yeri tutub. Böyük məşqçi Saypulla Absaidov və məşqçi Rövşən Hacıyevin rəhbərliyi altında çempionata 10 güləşçi ilə yollanan yığmamız 4 medal qazanıb. Hacımurad Hacıyev (70 kq) qızıl, Abubakr Abakarov (74 kq) gümüş, Orxan Abasov (79 kq) və Asxab Həmzətov (92 kq) isə bürünc medal əldə edib.

















### Karate

İsveçrənin Bazel şəhərində karate üzrə 9-cu nüfuzlu "Bazel Open Masters" turniri keçirilib. Yarışda iştirak edən Azərbaycan milli komandasının üzvləri 4 qızıl, 4 gümüş və 3 bürünc medala layiq görülüb. Kumite turnirində Rafiz Həsənov (67 kq), Rafael Ağayev (75 kq), Asiman Qurbanlı (84 kq-dan yuxarı) və İrina Zaretska (68 kq) çempion olublar. Tural Ağalarzadə (67 kq) və Şahin Atamov (84 kq-dan yuxarı) gümüş medal qazanıblar. Firdovsi Fərzəliyev (60 kq) və Nuranə Əliyeva (50 kq) isə bürünc mükafata yiyələniblər. "Masters" turnirində Ş.Atamov və İlahə Qasımova ikinci pilləni, İrina Zaretska üçüncü yeri tutublar.

* * *

Azərbaycan milli komandası Almaniyanın paytaxtı Berlində keçirilən Karate-1 turnirində iştirak edib. Komandamız yarışda dörd medal uğrunda mübarizə aparıb. Tatamiyə əvvəlcə üçüncü yer uğrunda mübarizə aparan Azərbaycan milli komandasının üzvü Firdovsi Fərzəliyev çıxıb. Onun rəqibi Qazaxıstan idmançısı Kaysar Alpisbay olub. Görüş idmançımızın 2:0 hesablı qələbəsi ilə başa çatıb.

Karatenin brilyantı sayılan Rafael Ağayev turnirin final mərhələsində Yusey Sakimaya (Yaponiya) ilə qarşılaşıb. Görüşün idmançımızın üstünlüyü ilə keçməsinə baxmayaraq, yaponiyalı karateçi xal sayına görə üstün olub (6:3).

Qadınlar arasında 68 kiloqram çəki dərəcəsində milli komandamızın üzvü İrina Zaretska final mərhələsində türkiyəli karateçi Eda Eltemurla qarşılaşıb. Görüş türkiyəli idmançının qələbəsi ilə başa çatıb (7:4).

### Taekvondo

Rusiyada taekvondo üzrə G1 kateqoriyalı "Russian Open" beynəlxalq turniri keçirilib. Komandamız yarışda Əməkdar məşqçi Məmməd Abdullayevin və böyük məşqçi Zahid Məmmədovun rəhbərliyi altında 4 idmançı ilə təmsil olunub. Təmsilçilərimizdən Hatəm Həsənli (45 kq) və Cavad Ağayev (63 kq) bütün rəqiblərinə qalib gələrək qızıl medala layiq görülüblər. Digər idmançımız Minayə Əkbərova (46 kq) isə yarımfinalda məğlub olaraq bürünc medalla kifayətlənib.

### Futbol

Sentyabrın 7-də futbol üzrə Azərbaycan milli komandası UEFA Millətlər Liqasının qrup mərhələsi çərçivəsində Kosovo yığması ilə qarşılaşıb.

Bakı Olimpiya Stadionunda keçirilmiş oyunda Azərbaycan yığması hesabı açmaq üçün ilk dəqiqələrdən irəli atılsa da görüş qolsuz heç-heçə ilə başa çatıb.

Sentyabrın 10-da milli komandamız UEFA Millətlər Liqasının qrup mərhələsində növbəti oyununu keçirib.

Yığmamız səfərdə Ta Qali milli stadionunda Malta seçməsi ilə qarşılaşıb. Çernoqoriyalı baş hakim Nikola Dabanoviçin idarə etdiyi oyuna meydan sahibləri daha fəal başlayıblar. Bədavi Hüseynovun kobud oyununa görə, matçın 10-cu dəqiqəsində millimizin qapısına təyin olunmuş on bir metrlik cərimə zərbəsini Andrey Aqius dəqiq yerinə yetirərək hesabı açıb. Görüşün 26-cı dəqiqəsində millimiz hesabı bərabərləşdirib. Təmkin Xəlilzadə baxımlı qola imza atıb. Komandaların cəhdlərinə baxmayaraq, matçda başqa qol omayıb və görüş 1:1 hesabı ilə başa çatıb.

* * *

UEFA Avropa Liqasında ilk oyununu keçirən "Qarabağ" komandası səfərdə Portuqaliyanın "Sportinq" klubu ilə qarşılaşıb. Oyunun birinci hissəsində hər iki komandanın cəhdlərinə baxmayaraq hesab açılmayıb. Qarşılaşmanın ikinci hissəsində hücumlarını artıran meydan sahibləri istəklərinə nail olublar. "Sportinq" klubunun futbolçuları 54-cü və 87-ci dəqiqələrdə iki qol vuraraq matçda qələbə qazanıblar.

### Futzal

Bakı İdman Sarayında futzal üzrə Azərbaycan və Qazaxıstan milli komandaları arasında yoldaşlıq oyunu keçirilib. Qarşılaşma rəqibin 3:1 hesablı qələbəsi ilə başa çatıb. Millimizin heyətində Xətai Bağırov fərqlənib.

### Voleybol

Qadın voleybolçulardan ibarət milli komandamız Azərbaycan Voleybol Mərkəzində Rusiyanın "Dinamo Krasnodar" klubu ilə yoxlama oyunu keçirib. Görüş yığmamızın 3:0 hesablı qələbəsi ilə yekunlaşıb. Rusiyanın "Uraloçka" klubu ilə keçirilən yoxlama oyununda isə komandamızın 3:2 hesablı qələbəsi qeydə alınıb.

### Həndbol

Azərbaycanın qadınlardan ibarət "Azərsu" həndbol komandası Avropa Həndbol Federasiyası (EHF) kuboku uğrunda yarışların birinci təsnifat mərhələsi çərçivəsində Polşanın "Metrako Zaqlebie Lubin" kollektivi ilə qarşılaşıb. "Hala Vidoviskovo Sportova" arenasında keçirilən qarşılaşmada nominal ev sahibi kimi çıxış edən komandamız meydandan məğlub ayrılıb - 30:26.

"Metrako Zaqlebie Lubin" həndbolçuları "Azərsu" ya ilk oyunda 27:21 hesabı ilə qalib gəliblər. Beləliklə, iki oyunun ümumi nəticəsinə görə 57:47 hesabı ilə qələbə qazanan polşalılar növbəti mərhələyə yüksəliblər. Təmsilçimiz isə mübarizəni birinci təsnifat mərhələsində dayandırıb.

### Üzgüçülük

Sentyabrın 14-15-də Qətərin paytaxtı Dohada üzgüçülük üzrə dünya kubokunun mərhələ yarışı keçirilib.

Komandamızın üzvü Maksim Şemberyev kişilər arasında 200 metr məsafəyə batterflay üsulu ilə yarışda qızıl medal qazanıb.

İdmançımız 400 metr məsafəyə qarışıq üsulla üzgüçülük yarışında isə gümüş medala sahib olub.

### Stolüstü tennis

İstanbulda "Türk dünyası ulduzlarının stolüstü tennis liqası" keçirilib.

Azərbaycan, Türkiyə, Özbəkistan və Şimali Kiprdən olan tennisçilərin Liqa oyunlarının sonuncu iki günündə komanda və şəxsi yarışlar keçirilib. Komanda yarışlarında tennisçimiz Emin Məmmədov birinci yeri tutan komandanın tərkibində çıxış edib. Ləman Abdülhəmidova ikinci, Zemfira Mikayılova isə üçüncü olan komandada mübarizə aparıblar.

Qızların şəxsi oyunlarında Zemfira Mikayılova birinci medal qazanıb. Oğlanların mübarizəsində isə Emin Məmmədov ikinci olub.

### Badminton

Ukraynanın Xarkov şəhərində badminton üzrə "RSL Kharkiv International 2018" turniri keçirilib. Yarışda 35 ölkədən 202 badmintonçu medallar uğrunda mübarizə aparıb.

Turnirdə ölkəmizi təmsil edən "Sabah" idman klubunun üzvü Edi Reski Dviçayo kişi badmintonçuların şəxsi yarışında uğurlu çıxışı ilə yadda qalıb. Mübarizəyə əsas mərhələdən başlayan badmintonçumuz yarışın finalınadək irəliləməyi bacarıb. Dviçayo həlledici görüşdə çexiyalı Yan Louda ilə qarşılaşıb. Görüş çexiyalının 2:0 hesablı qələbəsi ilə başa çatıb. Beləliklə, turnirі ikinci pillədə başa vuran Edi Reski Dviçayo yarışın gümüş medalını qazanıb. Turnirə təsnifat mərhələsindən start verən Ezmi Qovimuramadhoni isə mübarizəni 1/8 finalda dayandırıb.

* * *

Belarusun paytaxtı Minskdə keçirilən badminton üzrə "Belarus International 2018" turniri keçirilib. Kişilərin şəxsi yarışında finalda badmintonçumuz Edi Reski Dviçayo və Fransa təmsilçisi Leo Rossi üz-üzə gəlib. Yekunda 2:1 (21-18, 15-21, 21-19) hesablı qələbə qazanan təmsilçimiz "Belarus International 2018" turnirinin qalibi adını qazanıb. İdmançılarımız eyni uğura kişilərin qoşa yarışında da nail olub. Yarımfinalda polşalı Aleksander Yablonski - Kristof Yakovçuk cütlüyünə 2:0 (21-18, 23-21) hesabı ilə qalib gələn Edi Reski Dviçayo - Ezmi Qovimuramadhoni cütlüyü finalda Fransa badmintonçuları Leo Rossi - Tomas Baures üzərində inamlı qələbə qazanıb - 2:0 (21-18,21-14). Beləliklə, bu kateqoriyada da turnirin qalibi adını Azərbaycan badmintonçuları qazanıblar.

### Dama

Polşanın Mlava şəhərində xüsusi qrup insanlar arasında 64 xanalı dama üzrə dünya çempionatı keçirilib. "Neftçi İdman Klubu"nun təmsilçisi, Azərbaycan və Avropa çempionu, beynəlxalq usta Pərviz Həsənov yarışda əzmkarlıq nümayiş etdirərək böyük uğura imza atıb. İdmançımız İsveçrə sistemi üzrə keçirilən mötəbər turnirdə 7 tura 13 xal toplayaraq (6 qələbə, 1 heç-heçə) dünya çempionatının qızıl medalına sahib olub.

# DÜNYA idmanı





## "Kasıb boksçular böyük nəticələr əldə edirlər"

Ağır çəkili tanınmış boksçu Mayk Tayson Mumbaya səfəri zamanı keçmişdəki yoxsul həyat tərzindən danışıb. Bu barədə "Economic Times" nəşri məlumat verib.

"Fikrimcə, daha çox yoxsulluq, əzab-əziyyət görənlər daha yaxşı boksçu ola bilirlər. Baxsaq, görərik ki, ən uğurlu əlcək sahibləri xarabalıqlardan çıxıblar. Bir sözlə, kasıb boksçular böyük nəticələr əldə edirlər", - deyə 52 yaşlı Mayk Tayson bildirib.

İdmançı Hindistana qarışıq döyüş növləri (MMA) üzrə "Kumite 1 League" turnirinin açılışına görə gəlib. Jurnalistlərlə söhbət zamanı Tayson qeyd edib ki, karyerasının əvvəlində seçim imkanı olsaydı, heç vaxt MMA ilə məşğul olmazdı: "MMA-da böyük pul yoxdur, mən isə həmişə pul ardınca getmişəm",

Boksçu peşəkar karyerasını 2005-ci ildə başa vurub. 1987-1990-cı illərdə Tayson ağır çəki dərəcəsində mütləq dünya çempionu olub.



## Pilot etdiyi hərəkəti boynuna almayıb

Rusiya prezidenti Vladimir Putin Formula-1 üzrə Soçi Qran-prisinin mükafatlandırma mərasimindən əvvəl Luis Hemiltonla görüşüb. Rusiyanın "Sport-ekspress" saytının verdiyi xəbərə görə mərhələnin qalibi ilə prezident arasında maraqlı dialoq alınıb. Vladimir Putin Hemiltona deyib: "2015-ci ildə siz elə burada, Soçi Qran-prisində çempion olmuşdunuz. Əvvəldən mən tapşırmışdım ki, qələbəni qeyd edərkən şampanı mənim üstümə sıçratmayasınız. Siz isə buna əməl etmədiniz. Bu dəfə buna əməl edin". Prezidentin bu sözlərini tərcüməçi ilə vasitəsilə eşidən Luis Hemilton bildirib ki, həmin vaxt mən belə hərəkət etməmişəm.

"Onu edən başqa pilot olub. Bu dəfə də belə hərəkət etmək fikrim yoxdur. Sizə böyük hörmətim var", - deyə o, bildirib. Lakin sonradan video-yazıda görünür ki, həqiqətən, britaniyalı pilot şampanı Putinin üstünə sıçradıb. Qeyd edək ki, bu an dünya mediasının və sosial şəbəkələrin ən çox izlənilən hadisələrindən biri olub.



## Makqreqor xəstə uşağa yardım etdi

Tanınmış döyüşçü Konor Makqreqor ilk növbədə əldə etdiyi idman uğurları ilə tanınır və sevilir. Lakin azarkeşlərin əksəriyyəti onun nəcibliyi, xeyriyyəçiliyi barədə heç bir şey bilmir.

İrlandiyalı döyüşçü, həm də xeyriyyəçiliklə məşğuldur. Lakin bu barədə danışmağı sevmir. Həbib Nurmaqomedovla döyüşdən əvvəl Konor Makqreqor kiçikyaşlı xəstə oğlanın əməliyyatı üçün xəstəxanaya 10 min avro vəsait köçürüb. Bu barədə əməliyyat olunan uşağın anası özünün şəxsi "tvitter" hesabında məlumat verib: "Konor, biz sənə ömrümüzün axırına qədər minnətdar olacağıq. Övladımın səhhəti üçün etdiyin yaxşılığı heç vaxt unutmarıq. Sən, həqiqətən, əfsanəsən".

## Lebron Ceyms ustalıq nümayiş etdirdi

NBA-nın ulduz oyunçusu, "Leykers"in basketbolçusu Lebron Ceyms klubuna ilk xalları qazandırıb. Basketbolçu "Denver" klubu ilə oyunun üçüncü dəqiqəsində 3 xallıq ötürmə edib. San-Dieqoda təşkil edilən oyun 124:107 hesabı ilə "Leykers"in qələbəsi ilə başa çatıb. Lebron Ceyms meydnaçada keçirdiyi 15 dəqiqə ərzində 9 xal toplayıb, 3 seçim və 3 məhsuldar ötürmə edib.



### Olimpiya çempionu yeni dünya rekordu müəyyənləşdirdi

Rio-2016 Yay Olimpiya Oyunlarının çempionu, keniyalı Eliud Kipçoq Berlin marafonunun qalibi olub.

İdmançı marafon qaçışında yeni dünya rekordu müəyyənləşdirib. Eliud Kipçoq 42194 metr məsafəni 2 saat 1 dəqiqə 39 saniyəyə qət edib. O, bu nəticə ilə Denis Kipruto Kimmetonu 1 dəqiqə 18 saniyə üstələyib.

Qeyd edək ki, Kimmeto bu rekorda 2016-cı ilə imza atıb və həmin göstərici də Berlin marafonunda əldə edilib.

### 6 ildə ilk məğlubiyyət acısı

Dünyanın bir nömrəli raketka ustası Simona Halep üçün Pekin turniri uğursuz alınıb. Rumıniyalı tennisçi turnirin ilk dövrəsində Ons Jaberə qarşı oyunda 1:6 hesabı ilə uduzub.

Bu, "Rolan Qarros" turnirinin qalibi olan Simona Halep üçün artıq 4-cü məğlubiyyətdir. Bundan əvvəl o, Sinsinattinin finalını, US Open turnirinin ilk dövrəsini və Uxanda təşkil edilən yarışın ikinci dövrəsini məğlubiyyətlə başa başa vurub.

Simona Halep axırıncı dəfə 2012-ci ildə dörd matç dalbadal qalib gələrək top-50-yə yüksəlib.

## Zidan "Mançester Yunayted"in marağındadır




İngiltərənin "Mançester Yunayted" klubunun rəhbərliyi baş məşqçi Joze Mourinyonun yerinə mütəxəssis axtarışındadır. Klub bununla bağlı artıq Zinədin Zidanla danışıqlar aparıb.

"The Mirror" nəşrinin yazdığına görə, növbəti həftə ərzində Mourinyonun taleyinə aydınlıq gəlməlidir. Portuqaliyalının Zidanla əvəzlənəcəyi gözlənilir. Fransalı mütəxəssislə yanaşı, argentinalı Maurisio Poçettinonun da namizədliyi nəzərdən keçirilir.

Qeyd edək ki, bundan əvvəl Zinədin Zidan Qətər millisinin baş məşqçisi vəzifəsindən imtina edib. Fransalı mütəxəssisin son iş yeri Madridin "Real" klubu olub. Zidan "kral" klubu ilə ardıcıl 3 dəfə Çempionlar Liqasının qalibi olub.

## Stadion uçdu

Futbol üzrə İspaniya çempionatının 7-ci turu çərçivəsində keçirilən "Eybar" - "Sevilya" matçı zamanı "Munisipal de İpurua" stadionu uçub.

Bədbəxt hadisə ikinci hissənin ortalarında baş verib. Belə ki, "Sevilya"nın vurduğu qolun qeyd olunması zamanı hasar aşıb və "Sevilya" komandasının azarkeşləri meydana səpələniblər.

Hadisə zamanı 2 nəfər xəsarət alıb. Tibbi yardım göstərilməsi üçün onları xərəklə meydandan çıxarıblar.



Olimpiya dünyası

Baş redaktorun müavini:
A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 20 qəpikdir.
Qəzet "Olimpiya dünyası"nın kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı günü çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən "Olimpiya dünyası"na istinad etmək zəruridir.

E-mail:
olimpiya_dunyasi@mail.ru
Ünvan:
Bakı şəhəri,
2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-90-54; 564-74-19